QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!


"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 209 (5929) **13 noyabr** 2019-cu il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# İlham Əliyev: "Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir"

*Prezident İlham Əliyev Şirvan şəhər, Zərdab, Bakının Suraxanı, Yasamal, Xətai rayonlarına yeni təyin olunan icra hakimiyyəti başçılarını qəbul edib*



Səh 2

7

Konstitusiyamız və milli ideologiyamız



10

Siyavuş Novruzov: "Xalq onları dəstəkləmir, bunların kimlərə xidmət etdiyini yaxşı bilir"



11

Ünvansız müxalifətin piket cəhdi



# İlham Əliyev: “Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir”

*Prezident İlham Əliyev Şirvan şəhər, Zərdab, Bakının Suraxanı, Yasamal, Xətai rayonlarına yeni təyin olunan icra hakimiyyəti başçılarını qəbul edib*

***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edib.***

AZƏRTAC xəbər verir ki, görüşdə çıxış edən Prezident İlham ƏLİYEV dedi:

-Ölkəmizdə kadr islahatları davam edir. Kadr islahatları ümumi islahatların tərkib hissəsidir. Keçənilki prezident seçkilərindən sonra yeni islahatlar dövrünə start verildi və bu islahatlar davam edirilir. Sual yarana bilər ki, əgər ölkədə sürətli inkişaf təmin edilirsə, islahatlara ehtiyac varmı? Birmənalı olaraq cavab verə bilərəm ki, bəli, islahatlara ehtiyac var. İslahatlar təkmilləşmə deməkdir, islahatlar yeni dövrə uyğunlaşma deməkdir, islahatlar tərəqqi deməkdir. Dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilibdir.



“Birincisi, xalqa ləyaqətlə xidmət etməlisiniz. Bu, həm bu gün yeni təyin olunan icra başçılarına, həm də artıq icra başçısı vəzifəsində işləmiş və digər rayon və şəhərlərə göndərilən icra başçılarına aiddir. Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm - xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir”

Son 16 il ərzində Azərbaycanda sürətli inkişaf dövrü yaşanır. Bu inkişaf özünü bütün sahələrdə büruzə verir. Ölkəmizin beynəlxalq nüfuzu böyük dərəcədə artmışdır. Bu gün biz dünya miqyasında çox böyük hörmətə layiq ölkə kimi öz fəaliyyətimizi aparırıq. Qoşulmama Hərəkatının bu yaxınlarda Bakıda keçirilmiş Zirvə Görüşü bunu bir daha təsdiqlədi. Biz artıq BMT-dən sonra dünya miqyasında ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik edirik və üç il ərzində sədrliyi davam etdirəcəyik. Bu sədrlik 120 ölkənin rəyi əsasında yekdil qərarla əldə edilibdir. Yəni, bu, onu göstərir ki, dünya birliyinin ən azı üçdəiki hissəsi Azərbaycanı dəstəkləyir və bizim siyasətimizə böyük qiymət verir.

Eyni zamanda, siyasi islahatlar aparılır. Son illərdə demokratiyanın inkişafı istiqamətində, insan haqlarının qorunması işində böyük nailiyyətlər əldə edilib. Həmişə dediyim kimi, Azərbaycanda siyasi və iqtisadi islahatlar vəhdət təşkil edir.

O ki qaldı, iqtisadi sahəyə, hesab edirəm ki, Azərbaycanın əldə etdiyi nəticə dünya miqyasında rekord göstəricidir, 15 il ərzində - 2003-2018-ci illərdə bizim iqtisadiyyatımız üç dəfədən çox artmışdır. Bütün digər göstəricilər onu təsdiq edir ki, iqtisadi artım, eyni zamanda, vətəndaşların sosial təminatına da müsbət təsir göstərmişdir. Beləliklə, Azərbaycanda yoxsulluq təxminən 50 faizdən 5 faizə düşmüşdür. Xarici dövlət borcu ən aşağı səviyyədədir, ümumi daxili məhsulun cəmi 17 faizini təşkil edir və bu göstəriciyə görə biz dünya miqyasında doqquzuncu yerdəyik.

Böyük infrastruktur layihələri icra edilib və bu gün ölkəmizdə qazlaşdırmanın səviyyəsi 96 faizdir. Elektrik enerjisinin əlçatanlıq əmsalına görə Davos Ümumdünya İqtisadi Forumu Azərbaycanı dünya miqyasında ikinci yerə layiq görübdür. Bu, çox böyük nailiyyətdir. Yolların tikintisi - 15 ildə 15 min kilometr yol çəkilib, o cümlədən magistral, şəhərlərarası, kənd yolları çəkilib. Digər infrastruktur layihələri, o cümlədən sosial infrastrukturla bağlı layihələr uğurla icra edilib, 3200-dən çox məktəb, 640-dan çox tibb müəssisəsi tikilib, yenidən qurulub, yaxud da ki, təmir edilib. Yəni, əldə edilmiş bütün bu nəticələri sadalamaq üçün saatlarla vaxt lazım olacaq.

Bildirməliyəm ki, texnoloji inkişaf istiqamətində böyük uğurlar əldə edilib. Azərbaycan indi kosmik klubun üzvüdür, üç peykimiz var. Deyə bilərəm ki, bu yaxınlarda çox gərgin yarış nəticəsində Azərbaycan 2022-ci ildə Dünya Astronavtika Konqresinə ev sahibliyi edəcək. Məlumat üçün bildirmək istəyirəm ki, bizim rəqiblərimiz Rio-de-Janeyro, Dehli və Sinqapur şəhərləri idi. Yəni, bu şəhərlərin nə qədər inkişaf etmiş şəhərlər olması haqqında əlavə sözlərə ehtiyac yoxdur. Azərbaycan bu yarışda da qalib gəldi. Nəyin hesabına? Ona görə ki, dünya miqyasında bizim siyasətimizə çox böyük dəstək var, rəğbət var. Bizim sözümüzlə əməlimiz birdir. Azərbaycan dünya miqyasında özünü çox məsuliyyətli ölkə kimi artıq təsdiqləyibdir.

Eyni zamanda, sosial islahatlar uğurla aparılır. Yoxsulluğun aşağı səviyyəyə düşməsinin əsas səbəbi də ondan ibarətdir ki, bizim iqtisadi islahatlarımız, o cümlədən sosial sahə böyük diqqətlə əhatə olunur. Bu il 4 milyon 200 mindən çox insan çox geniş sosial paketlə əhatə olunubdur və minimum əməkhaqqı, minimum pensiya əhəmiyyətli dərəcədə artmışdır. Minimum əməkhaqqı təxminən 2 dəfə, minimum pensiya 70 faizdən çox, müavinətlər 2 dəfə artmışdır. Bu il orta əməkhaqqı 35 faiz artmışdır. Mənə bu yaxınlarda verilən statistik məlumata görə, hazırda Azərbaycanda orta əməkhaqqı 723 manat təşkil edir. Əminəm ki, gələcək illərdə bu rəqəm artacaq. İlk növbədə, ona görə ki, həm maaşlar artacaq, eyni zamanda, biz kölgə iqtisadiyyatına qarşı ciddi mübarizə apararaq, artıq 100 mindən çox iş yerini kölgədən çıxarıb və onları rəsmiləşdirə bilmişik və bu proses davam edəcək. Biz hələ işin başlanğıc mərhələsindəyik. Amma orta əməkhaqqının 35 faiz artırılması və 723 manata çatdırılması, əlbəttə ki, sosial siyasətimizin bariz nümunəsidir.

Son illərdə energetika, nəqliyyat sahələrində qarşımızda duran bütün vəzifələr icra edildi. Bu vəzifələri icra etmək üçün çox böyük səylər göstərilmişdir. Çox mürəkkəb geosiyasi vəziyyətdə həm Bakı-Tbilisi-Ceyhan, həm də Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri istismara verildi. TANAP kimi tarixi layihə artıq fəaliyyətdədir və Cənub Qaz Dəhlizinin icrasının yekunlaşmasına demək olar ki, bir il vaxt qalıbdır. İnşallah, biz bu layihəni də uğurla başa vuracağıq.

Azərbaycanda nəqliyyat infrastrukturu müasirləşir. Yenə də Davos Ümumdünya İqtisadi Forumunun son hesabatına qayıtmaq istəyirəm. Orada göstərilir ki, dəmir yollarının səmərəliliyinə görə Azərbaycan dünya miqyasında 12-ci yerdədir, hava nəqliyyatının səmərəliliyinə görə isə 11-ci yerdədir. Avtomobil yollarının keyfiyyətinə görə Azərbaycan dünya miqyasında 27-ci yerdədir və MDB-də birincidir. Yəni, eyni zamanda, Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinin fəaliyyəti də böyük dərəcədə bizim uğurlu siyasətimizdən asılı idi və bu layihələrə artıq start verildi. Azərbaycan uzunmüddətli formatda bu layihələrdən həm böyük siyasi, həm də iqtisadi dividendlər götürəcək.

Əlbəttə ki, bütün bu müsbət nəticələri qorumaq və onları artırmaq üçün mütləq kadr islahatı da aparılmalıdır. Bu məqsədlə Azərbaycanda hazırda çox ciddi kadr islahatları aparılır. Həm təcrübə qazanmış kadrlar daha da səmərəli öz işlərini qururlar, eyni zamanda, gənclərə də böyük meydan verilir. Bu, təbiidir, çünki gələcəkdə ölkəmizi bugünkü gənclər idarə edəcəklər. Onlar gərək həm təcrübə toplasınlar, peşəkar olsunlar, eyni zamanda, Vətənə bağlı olsunlar.

**Ardı Səh. 3**

# İlham Əliyev: “Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir”

*Prezident İlham Əliyev Şirvan şəhər, Zərdab, Bakının Suraxanı, Yasamal, Xətai rayonlarına yeni təyin olunan icra hakimiyyəti başçılarını qəbul edib*

Əvvəli Səh. 2

Ona görə gənclərə vətənpərvərlik hissləri aşılamaq hər birimizin borcudur ki, onlar gələcəkdə Vətənə bağlı olsunlar və hər hansı bir xarici təsirdən azad olsunlar. Çünki ölkəmizin nüfuzu artır, imkanları artır. Bizim iştirakımız, razılığımız olmadan regional müstəvidə heç bir təşəbbüs, yaxud da ki, layihə icra edilə bilməz. Əlbəttə, belə olan halda bizə həm maraq artır, həm də ki, bəzi dairələr tərəfindən təzyiqetmə cəhdləri də arta bilər. Düzdür, son 16 ilin təcrübəsi onu göstərir ki, kənardan edilən hər hansı bir təzyiqə Azərbaycan çox böyük məharətlə və ləyaqətlə davam gətirə bilir. Bizə qarşı ünvanlanmış bütün bu oxlara, silahlara tutarlı cavab verə bilmişik. Bu cavabın əsas mahiyyəti ondan ibarətdir ki, xalq-iqtidar birliyi bugünkü sabitliyin və müstəqil həyatımızın əsas təminatçısıdır. Ancaq yenə də deyirəm, gənclər mütləq məhz vətənpərvərlik ruhunda tərbiyə almalı və təcrübə toplamalıdırlar. Ona görə son dövrün kadr islahatlarının məqsədlərindən biri də odur ki, biz gənclərə daha geniş imkanlar yaradaq, geniş meydan verək ki, onlar həm təcrübə toplasınlar, həm də gələcəkdə öz işləri ilə ümumi işimizə töhfə versinlər.

Bu gün kadr islahatlarının yeni dövrüdür. Bu gün bir neçə rayona icra başçıları təyin olunur. Onların bəziləri artıq neçə ildir ki, icra başçısı vəzifəsində işləyirlər, bəziləri bu gün bu məsul vəzifəyə təyin olunurlar. Biz burada da təcrübə ilə yeniliyin sintezini, vəhdətini görürük və bu, uğurlarımızın əsas bazasıdır.

Yeni təyin olunan icra başçılarına mənim sözüm odur ki, siz, ilk növbədə, vəziyyəti düzgün qiymətləndirməlisiniz, çox ciddi təhlil aparmalısınız, çatışmayan cəhətləri üzə çıxarmalısınız və mövcud olan problemlərin həlli üçün səylərinizi göstərməlisiniz. O problemlər ki, həlli mərkəzi icra orqanlarından asılıdır, siz mütləq mərkəzi icra orqanlarına, Prezident Administrasiyasına, Nazirlər Kabinetinə, digər müvafiq qurumlara müraciət etməlisiniz. O məsələləri ki, özünüz həll edə bilərsiniz, özünüz də həll etməlisiniz. Başlıca məsələ ondan ibarətdir ki, sizin işinizdə əsas prinsiplər bərqərar olmalıdır. Birincisi, xalqa ləyaqətlə xidmət etməlisiniz. Bu, həm bu gün yeni təyin olunan icra başçılarına, həm də artıq icra başçısı vəzifəsində işləmiş və digər rayon və şəhərlərə göndərilən icra başçılarına aiddir. Xalqa xidmət etmək hər bir dövlət məmurunun borcudur və dəfələrlə demişəm ki, mən Prezident kimi öz vəzifəmi bunda görürəm - xalqa xidmət etmək. Məhz bu xidmətə görə Azərbaycan əhalisi bizə çox böyük dəstək göstərir.

> “Sosial islahatlar uğurla aparılır. Yoxsulluğun aşağı səviyyəyə düşməsinin əsas səbəbi də ondan ibarətdir ki, bizim iqtisadi islahatlarımız, o cümlədən sosial sahə böyük diqqətlə əhatə olunur”

Yenə də Davos İqtisadi Forumunun hesabatına qayıtmaq istəyirəm. Orada göstərilir ki, hakimiyyətin dəyişikliklərə, islahatlara meyli və əhali tərəfindən rəhbərliyə olan dəstək sahəsində Azərbaycan dünya miqyasında birinci onluğa daxil edilib. Bu dəstək nəyin hesabınadır? Ona görə ki, xalqa xidmət etmək mənim borcumdur və bundan sonra da əsas borcum olaraq qalacaq.

Digər tərəfdən, icra başçıları peşəkar olmalıdırlar, bilikli olmalıdırlar və onlar işlədikləri rayonda, şəhərdə nüfuz qazanmalıdırlar. Bu, onların sırf öz işindən asılıdır. Prezidentin etimadı artıq xalqa bir mesajdır ki, Prezident bu şəxslərə etimad göstərir. Ancaq bu etimad mütləq deyil, bu gün var, sabah olmaya bilər. Bu, artıq sizin işinizdən asılıdır. Siz işi elə qurmalısınız ki, vətəndaşlar sizi dəstəkləsinlər, sizə dayaq olsunlar. Əgər siz hansısa bəd əmələ düçar olsanız, əlbəttə ki, biz dərhal bundan xəbər tutacağıq və cəzanızı alacaqsınız. Elə işləməlisiniz ki, xalq sizdən razı olsun. İlk növbədə, xalqa xidmət etmək və öz vəzifənizin öhdəsindən peşəkarcasına gəlmək sizin borcunuzdur. Digər tərəfdən, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda xoşagəlməz hallara qarşı çox ciddi mübarizə aparmalısınız. Korrupsiya, rüşvətxorluq Azərbaycanın gündəliyindən silinməlidir. Düzdür, elə ölkə yoxdur ki, bu problem orada olmasın. Amma əsas məsələ ondadır ki, rəhbərlik və hakimiyyət, o cümlədən yerli icra orqanları bu məsələyə necə münasibət göstərirlər. Əgər gözlərini yumurlarsa, yaxud da ki, özləri bu çirkin işlərə qarışırlarsa, əlbəttə ki, layiqli cəzalarını da alacaqlar və almalıdırlar. Bir daha vətəndaşlara müraciət etmək istəyirəm, əgər görsəniz ki, rəhbər şəxslər əyri yola gedirlər, mütləq məlumat verin, mütləq xəbər göndərin və biz, əlbəttə ki, bütün siqnalları yoxlayıb düzgün qərar qəbul edəcəyik. O da həqiqətdir ki, bəzən hansısa şəxsi zəmində dövlət məmurlarına qarşı əsassız ittihamlar irəli sürülür. Xüsusilə özünü müxalifət adlandıran antimilli və tamamilə rəzil olmuş qorxaq dəstə bu işlərdə ön sıralardadır. Çünki onların əlindən heç nə gəlmir. Onların işi ancaq qarayaxma kampaniyaları aparmaq və bizim işimizə maneçilik törətməyə cəhd göstərməkdir. Ancaq tarix və həqiqət onu göstərir ki, ayağımıza dolaşmaq istəyən bu antimilli qorxaq dəstə bizim işimizə zərrə qədər ziyan vura bilməz. İndi onlar ancaq sosial şəbəkələrdən, bəzi internet resurslarından istifadə edərək dövlət məmurlarına qarşı qarayaxma kampaniyası aparırlar. Ona görə yerlərdən gələn hər bir siqnala obyektiv baxılacaq və sizin fəaliyyətinizə obyektiv qiymət veriləcək. Ona görə siz elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar, rəhbərlik edəcəyiniz şəhər və rayonlarda işlər yaxşı getsin. Siz çalışmalısınız ki, rayonlara sərmayə qoyulsun, investorları inandırmaq üçün səylər göstərməlisiniz. Yəni, gözləməməlisiniz ki, dövlət gəlib hansısa işi görəcək, onsuz da biz bunu görürük. Hazırda 4-cü regional inkişaf proqramının icrası davam edir. Əminəm ki, növbəti 4 il ərzində bu günə qədər öz həllini tapmamış məsələlər də öz həllini tapacaq. Ancaq siz hər bir rayonda mövcud olan problemlərə diqqət göstərməlisiniz, reaksiya verməlisiniz və çalışmalısınız ki, bu məsələlər öz həllini tapsın.

Ona görə vətənpərvərlik, dürüstlük, şəffaflıq, vətəndaşlara xidmət, dövlətçilik prinsiplərini əsas tutmaq, investorları cəlb etmək, rayonların sosial-iqtisadi inkişafını təmin etmək sizin əsas vəzifəniz olmalıdır. Yenə də deyirəm, həm sənaye, həm də kənd təsərrüfatı istehsalı sahələrinə dövlət xətti ilə çox böyük dəstək göstərilir. Təsadüfi deyil ki, bu ilin 9 ayının yekunlarına görə qeyri-neft sənayemiz 15 faizdən, kənd təsərrüfatı 7 faizdən çox artıb. Artıq pambıq yığımı mövsümü başa çatır, mənə verilən məlumata görə, bu il biz rekord göstəriciyə nail olmuşuq. Biz keçən ilə nisbətən əkin sahələrini azaltdıq, 132 min hektardan 100 min hektara endirdik, çünki bəzi yerlərdə torpaqlar düzgün seçilməmişdi. Ancaq məhsuldarlıq artdı. Hazırda yığım davam edir və hektardan məhsuldarlıq 27 sentnerə çatıb, keçən il 17 sentner idi. Keçən il biz 132 min hektardan 233 min ton pambıq yığmışdıqsa, bu il 100 min hektardan artıq 270 min tondan çox pambıq yığmışıq. Mən təkcə pambığı deyirəm. İndi taxılçılıqda da böyük irəliləyiş var. Ümumi göstərici hektardan 32 sentnerə çatıb. Bu, çox yaxşı göstəricidir. Daha da artacaq. Meyvəçilikdə, fındıqçılıqda da məhsuldarlıq artır. Yəni, kənd təsərrüfatı sahəsində dövlət xətti ilə çox böyük işlər görülür. Siz də öz dəstəyinizi verməlisiniz və sahibkarlara diqqət göstərməlisiniz, onları incitməməlisiniz. Əgər hansısa sahibkar vəsait qoymaq, hansısa iş görmək istəyirsə, birinci olaraq siz ona dəstək verməlisiniz. Bəzi hallarda sahibkarlara qarşı ədalətsizlik edilir və onlardan nəsə əldə etmək cəhdləri göstərilir. Buna qətiyyən yol vermək olmaz. Sahibkarlara da deyirəm ki, əgər belə xoşagəlməz halla üzləşsələr, dərhal bizə məlumat versinlər.

Ölkəmizin ümumi inkişafı müsbətdir və mən gələcəkdə hər hansı bir ciddi problem görmürəm. Çünki ölkəmiz siyasi cəhətdən çox möhkəmdir, sabitlik Azərbaycanın uğurlu inkişafının əsas amillərindən biridir. Sabitliyin təminatçısı Azərbaycan xalqıdır və bizim siyasətimizdir. Bizim siyasətimizə ləkə vuran hər bir adam öz cəzasını alacaqdır. Biz bu qədər səy göstəririk, bu qədər işlər görürük, əgər hansısa yaramaz məmur öz şəxsi maraqlarını təmin etmək üçün hansısa bəd əməl törədərsə, mütləq cəzasını alacaq və artıq tarix bunu göstərir. Əminəm ki, siz bu yüksək etimadı doğruldacaqsınız və elə işləyəcəksiniz ki, rəhbərlik edəcəyiniz rayon və şəhərlərdə inkişaf daha da sürətli olsun.

# “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin 91-ci kitabı çapdan çıxıb

Azərbaycan bu gün dünya miqyasında çox böyük hörmətə layiq olan ölkə kimi tanınır. Bizim beynəlxalq nüfuzumuz artır. Mən bunu dəfələrlə qeyd edirəm və bu, sadəcə olaraq, sözdə deyil. Beynəlxalq təşkilatların Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı bizim mövqeyimizi əks etdirən bir çox qərar və qətnamələri olub. İkitərəfli sazişlərimizdə bu məsələ bizim mövqeyimizi əks etdirərək öz həllini tapıb. Avropa İttifaqı ilə tərəfdaşlıq prioritetləri sənədinin imzalanması çox əlamətdar hadisə idi. Bu sənəddə göstərilir ki, Azərbaycanın ərazi bütövlüyü, suverenliyi, sərhədlərinin toxunulmazlığı dəstəklənir. NATO-nun Zirvə Görüşündə ərazi bütövlüyümüzlə bağlı çox önəmli məsələ öz əksini tapıbdır. İkitərəfli imzalanmış sənədlərdə daim bizim mövqeyimiz öz əksini tapır.

AZƏRTAC xəbər verir ki, “İlham Əliyev. İnkişaf - məqsədimizdir” çoxcildliyinin yenicə çapdan çıxmış 91-ci kitabında yer alan bu fikirləri dövlətimizin başçısı Milli Olimpiya Komitəsində 2018-ci ilin idman yekunlarına həsr olunan mərasimdəki nitqində söyləyib.

Akademik Ramiz Mehdiyevin buraxılışına məsul olduğu çoxcildliyin növbəti kitabındakı materiallar 2018-ci ilin noyabr ayından 2019-cu ilin yanvar ayınadək olan dövrü əhatə edir.




Çoxcildliyin 91-ci kitabında Prezident İlham Əliyevin Belarus və Türkmənistan respublikalarına, Rusiya Federasiyasına rəsmi və işgüzar səfərləri çərçivəsində keçirdiyi görüşlər, habelə imzalanan sənədlər haqqında informasiyalar, dövlət başçılarının mətbuata birgə bəyanatlarının mətnləri yer alıb. Nəşrdə, həmçinin Azərbaycan Prezidentinin Türkiyə, Rusiya, İran, ABŞ və digər dövlətlərin, NATO-nun yüksəkvəzifəli nümayəndələrini qəbul etməsinə dair informasiyalar verilib. Dövlətimizin başçısı bütün görüş və danışıqlarda diqqəti Ermənistanın işğalçılıq siyasətinə yönəldib, dünya ictimaiyyətini Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri çərçivəsində həllinə dəstək verməyə çağırıb.

Oxucu bu kitabda Azərbaycan Prezidentinin paytaxtımızda iqtisadi, sosial, mədəni infrastruktur obyektlərinin açılış mərasimlərində iştirakına, XXIV Azərbaycan Beynəlxalq telekommunikasiya, innovasiya və yüksək texnologiyalar sərgisi - “BakuTel-2018” ilə tanışlığına dair materiallarla, “Rossiya-24” televiziya kanalına müsahibələrinin mətnləri ilə də tanış ola bilər.

Nəşrdə dövlətimizin başçısının Azərbaycan ədliyyəsinin 100 illik yubileyi münasibətilə respublikanın ədliyyə işçilərinə və hakimlərə, Azərbaycan müəllimlərinin XV qurultayının, Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının V qurultayının iştirakçılarına məktubları, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə Azərbaycan xalqına, Milad bayramı münasibətilə Azərbaycanın pravoslav xristian icmasına təbriklərinin mətnləri və digər məktublar toplanıb. Kitabda “Qeydlər”, “Şəxsi adlar”, “Coğrafi adlar” göstəriciləri verilib.

“Azərnəşr” tərəfindən buraxılan 91-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.

# Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində mühüm layihələr həyata keçirilir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda ağacəkmə aksiyasında iştirak ediblər*

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva noyabrın 11-də Heydər Əliyev Fondu tərəfindən Bakının Xətai rayonunda salınan yeni "Gənclik" parkında "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi çərçivəsində ağacəkmə aksiyasında iştirak ediblər.**



AZƏRTAC xəbər verir ki, Heydər Əliyev Fondunun icraçı direktoru Anar Ələkbərov dövlətimizin başçısına və birinci xanıma Xətai rayonunda Heydər Əliyev Fondu tərəfindən salınacaq yeni park barədə məlumat verərək dedi:

-Cənab Prezident, bura parkın ən hündür nöqtəsidir. Buradan bütün ərazi görünür. Parkın ərazisi 37,2 hektardır.

Prezident İlham Əliyev: Buradan gözəl mənzərə açılır.

Anar Ələkbərov: Elədir. Mehriban xanımın tapşırığına əsasən biz buraları qoruyub saxlamışıq və çalışırıq ki, tezliklə bu parkı insanların istifadəsinə verək. Bu ərazinin yeni planı nəzərdə tutulub. Burada böyük, özü də sadə bir park olacaq.





Birinci xanım Mehriban Əliyeva: Təbii park.

Prezident İlham Əliyev: Bəli, təbii.

Anar Ələkbərov: İnsanların asudə vaxtlarının səmərəli təşkili üçün burada bütün şərait yaradılacaq.

Prezident İlham Əliyev: İdman meydançaları da.

Anar Ələkbərov: Əsasən idman meydançalarına, idman qurğularına üstünlük veriləcək. Burada insanların daha çox təbiət qoynunda idman etmələri üçün xüsusi zolaqlar, velosiped yolları, sadə piknniklər üçün yerlər olacaq. İnsanların vaxtlarını, bayramlarını burada keçirmələri üçün bütün imkanlar yaradılacaq.



Prezident İlham Əliyev: Çox yaxşı. Burada iaşə obyektləri də olmalıdır ki, vətəndaşlar gələndə onlardan istifadə edə bilsinlər.

Anar Ələkbərov: Elədir, cənab Prezident.

Prezident İlham Əliyev: Amma əlbəttə ki, bu təbii mənzərə qorunmalıdır. İndi burada yeni ağaclar əkilir.

Anar Ələkbərov: Bu gün 30 minə yaxın ağac əkiləcək. Sizin dəstəyinizə böyük ehtiyacımız var ki, biz bu parkı salaq və insanların istifadəsinə verək.

Ardı Səh. 5

# Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində mühüm layihələr həyata keçirilir

*Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Bakının Xətai rayonunda ağacəkmə aksiyasında iştirak ediblər*

**Əvvəli Səh. 4**

Prezident İlham Əliyev: Hesab edirəm ki, park qısa müddət ərzində tamamilə abadlaşdırılacaq və vətəndaşlar üçün burada gözəl imkanlar yaradılacaq.

Birinci xanım Mehriban Əliyeva: Suvarma sistemi necə olacaq?

Anar Ələkbərov: Artıq onu həll edirik. Bu gün ağacları əkirik deyə biz artıq Sizin göstərişinizlə suvarma sistemini də çəkdik. Amma təbii ki, burada əlavə işlər var. İşıqlandırma sistemlərinə yenidən baxılmalıdır. Xüsusi suvarma sistemləri qurulmalıdır. Onu təşkil edəcəyik.

Prezident İlham Əliyev: Burada zeytun ağacları da görürəm. Vaxtilə əkilib?

Anar Ələkbərov: Bəli, vaxtilə burada çoxlu zeytun ağacı olub, məhsul da yığılıb.

Prezident İlham Əliyev: İndi də əkmək lazımdır, əsasən zeytun və







şam ağacları.

Anar Ələkbərov: Biz burada Eldar şamına da üstünlük veririk. Əvvəllər burada zeytun ağacları ilə bərabər, Eldar şamları da çox idi. Ona görə bu qaydada davam edəcəyik.

Sonra Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva parkda ağac əkdilər.

Dövlətimizin başçısının rəhbərliyi ilə ölkəmizdə həyata keçirilən siyasətin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prezident İlham Əliyev Azərbaycan vətəndaşının sosial məsələlərinin həllini, onların sağlamlıqlarının qorunmasını prioritet məsələlərdən biri kimi müəyyənləşdirib. Bu istiqamətdə indiyədək çox sayda layihələr icra olunub. Bu layihələr sırasında əhalinin sağlam ekoloji mühitdə yaşaması məsələsinə də xüsusi diqqət yetirilir. Ölkəmizdə həyata keçirilən ekoloji siyasət nəticəsində yeni yaşıllıqların salınması, mövcudlarının qorunması ilə yanaşı, eyni zamanda, əvvəllər heç bir yaşıllıq olmayan sahələrdə də ağacəkmə aksiyalarının keçirilməsi Azərbaycanda ekoloji durumun yaxşılaşdırılmasına mühüm töhfələr verir, yaşıllıq zonalarının sahəsini artırır.



Azərbaycanda ekoloji vəziyyətin yaxşılaşdırılması üçün dövlət səviyyəsində həyata keçirilən layihələrə birinci xanım Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da xüsusi diqqət yetirir. Ölkəmizdə yeni yaşıllıqların salınmasında və mövcud yaşıllıq sahələrinin qorunmasında Fondun töhfəsi olduqca böyükdür. Bu məsələdə Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın təşəbbüsü və dəstəyi ilə ekoloji durumun daha da yaxşılaşdırılması, yeni yaşıllıqların salınması məqsədilə icra olunan layihələrin də mühüm rolu var. Bu baxımdan Heydər Əliyev Fondunun "Təbiət naminə birləş, Həyat naminə birləş!" layihəsi xüsusi əhəmiyyət daşıyır.

Aksiyada gənclər, rayon sakinləri, Heydər Əliyev Fondunun "Regional İnkişaf" İctimai Birliyinin könüllüləri fəal iştirak etdilər.

Bakıda və respublikanın müxtəlif rayonlarında ağacəkmə aksiyalarının təşkilini nəzərdə tutan layihə ətraf mühitin mühafizəsinin vacibliyini insanların, xüsusilə gənc nəslin diqqətinə çatdırır və onları ekoloji problemlərin aradan qaldırılması istiqamətində mübarizədə birgə fəaliyyətə səsləyir. Layihənin məqsədi, eyni zamanda, insanları nəcib təşəbbüslər ətrafında birləşdirməyə yönəlib. Dövlət Bayrağı bayramının qeyd edildiyi günlərdə və 12 noyabr - Konstitusiya Günü ərəfəsində təşkil olunan bu aksiya həm də vətəndaşların ölkə üçün vacib layihə ətrafında birləşməsi ilə yadda qaldı.

Dövlətimizin başçısı İlham Əliyev və birinci xanım Mehriban Əliyeva ağacəkmə aksiyasının iştirakçıları ilə görüşüb söhbət etdilər.

Sonda xatirə şəkilləri çəkdirildi.

Qeyd edək ki, ağac əkilən ərazidə əvvəlcə müvafiq iməcilik təşkil olunub, təmizlik işləri aparılıb.

Aksiya çərçivəsində ağacların əkilməsi, sulanması, ərazinin tullantılardan təmizlənməsi ilə yanaşı, buradakı mövcud ağaclarda quş yuvaları və yem qabları quraşdırılıb.

Tədbir çərçivəsində ərazidə müxtəlif əyləncəli və musiqili proqramlar, yarışlar təşkil olunub. İştirakçılar aksiyaya qatılmaqdan məmnun qaldıqlarını bildiriblər.

# Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 12-də Birləşmiş Ərəb Əmirliklərinin İqtisadiyyat naziri Sultan bin Səid əl-Mansurinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, nümayəndə heyətinin üzvlərini salamlayan Prezident İlham Əliyev dedi:***

-Xoş gəlmisiniz. Sizi yenidən görməyə şadam.

**Sultan bin Səid əl-Mansuri dedi:**

-Mən burada olmaqdan çox məmnunam. Burada özümüzü evimizdəki kimi hiss edirik.

**Prezident İlham Əliyev:** Doğrudur. Ümidvaram ki, səfəriniz çox yaxşı, çox uğurlu və səmərəli keçəcək. Sabah Birgə Hökumətlərarası Komissiyanın iclası keçiriləcək. Ümidvaram ki, o, çox uğurlu olacaq, çünki fəaliyyətimizin əhatə dairəsi artır.

**Sultan bin Səid əl-Mansuri:** Tamamilə doğrudur.

**Prezident İlham Əliyev:** Əlaqələr olduqca müsbət məcrada inkişaf edir. Siyasi əlaqələr çox güclüdür. Bizim aramızda çox yaxşı qarşılıqlı anlaşma və qarşılıqlı dəstək var. Mən, həmçinin sizin Qoşulmama Hərəkatının Zirvə Görüşündə iştirak edən Xarici İşlər nazirinizi görməyə çox şad oldum. Bu mühüm tədbirə verdiyiniz töhfəyə görə sizə təşəkkür edirəm. Bildiyiniz kimi, hazırda Azərbaycan bu mühüm təşkilata sədrlik edir. Biz üç il ərzində buna məsuliyyət daşıyacağıq. Biz sözsüz ki, dost ölkələrimizi dəstəkləyəcəyik. Bizim beynəlxalq təşkilatlarda çox yaxşı qarşılıqlı dəstəyimiz var, biz hər zaman bir-birimizi dəstəkləyirik. Ticarət dövriyyəmizdə yaxşı nəticələr var. Əlbəttə ki, turizm artır, indi hər iki istiqamətdə.

**Sultan bin Səid əl-Mansuri:** Bəli, çox əla.

**Prezident İlham Əliyev:** Ölkəmizə səfər edən Birləşmiş Ərəb Əmirlikləri vətəndaşlarının sayı artır və əlbəttə ki, Azərbaycan vətəndaşları sizin gözəl ölkənizə səfər etməkdən çox məmnundurlar. Əminəm ki, komissiya çərçivəsində siz əməkdaşlığın yeni sahələrini müəyyənləşdirəcəksiniz, ənənəvi sahələrdə əməkdaşlığı intensivləşdirmək üçün addımlar atacaqsınız və biz gələcəkdə dostluğumuzu gücləndirəcəyik.

**Sultan bin Səid əl-Mansuri:** Cənab Prezident, bizi qəbul etdiyinizə görə təşəkkür edirik. Mən bilirəm ki, Siz Birləşmiş Ərəb Əmirliklərinin ən böyük dostlarından birisiniz. Mən Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və qardaşınız Şeyx Məhəmməd bin Rəşid Al Məktumun salamlarını çatdırmaq istəyirəm. Cənab Prezident, bildiyiniz kimi, Azərbaycan bizim qəlbimizdə xüsusi yer tutur. Biz görüşəndə dərhal bunu hiss edirik. Bu gün mən hava limanından şəhərə otelə gələndə ətrafı seyr etdim. Azərbaycanda möhtəşəm dəyişikliklər baş verib. Zatialiləri, ikinci məsələ ondan ibarətdir ki, biz Birləşmiş Ərəb Əmirlikləri və Azərbaycan arasında iqtisadi əlaqələrə çox sadiqik.

Prezident İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinin Prezidenti Əlahəzrət Şeyx Xəlifə bin Zayed Al Nəhyanın və Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti və Baş Naziri, Dubay Əmiri Şeyx Məhəmməd bin Rəşid Al Məktumun salamlarına görə təşəkkürünü bildirdi, onun da salamlarını Birləşmiş Ərəb Əmirliklərinin Prezidentinə və ölkənin vitse-prezidenti və Baş Nazirinə çatdırmağı xahiş etdi.

Görüşdə ölkələrimiz arasında iqtisadi əlaqələrin inkişaf dinamikasının önəmi vurğulandı, sərmayə qoyuluşu, nəqliyyat və digər sahələrdə əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər müzakirə edildi, sabah Bakıda keçiriləcək Azərbaycan Respublikası Hökuməti və Birləşmiş Ərəb Əmirlikləri Hökuməti arasında iqtisadi, ticarət və texniki əməkdaşlıq üzrə Birgə Hökumətlərarası Komissiyanın növbəti iclasının bu əməkdaşlığın daha da genişləndirilməsi işinə töhfə verəcəyinə əminlik ifadə olundu.



## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 18 dekabr tarixli 411 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Büdcə qaydasına uyğun icmal büdcə xərclərinin yuxarı həddinin hesablanması Qaydası"nda dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

***

Prezident İlham Əliyev R.Quliyevin Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncamda deyilir ki, Rafiq Çəpərxan oğlu Quliyev Bakı şəhəri Xətai Rayon İcra Hakimiyyətinin başçısı təyin edilsin.

***

Prezident İlham Əliyev E.Həsənovun Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, Elşad Eldar oğlu Həsənov Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Prezident İlham Əliyev Ə.Əzizovun Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, Əziz İmran oğlu Əzizov Bakı şəhəri Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Prezident İlham Əliyevin digər bir sərəncamı ilə, Ə.Əzizov Bakı şəhəri Yasamal Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

***

Prezident İlham Əliyev M.Camalovun Zərdab Rayon İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Sərəncama əsasən Mərdan Talıb oğlu Camalov Zərdab Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Digər bir Sərəncamla, Mərdan Talıb oğlu Camalov Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

***

Prezident İlham Əliyev L.Babayevin Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, Lütvəli Babəli oğlu Babayev Zərdab Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilir.

***

Prezident İlham Əliyev İlqar Abbasovun Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilməsi haqqında Sərəncam imzalayıb. Trend-in məlumatına görə, sərəncama əsasən, İlqar Namaz oğlu Abbasov Şirvan Şəhər İcra Hakimiyyətinin başçısı təyin edilib.

***

Digər bir Sərəncamla İlqar Namaz oğlu Abbasov Suraxanı Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilib.

# Dan Stav: "Azərbaycanda bir gündə 650 min ağacın əkilməsi qlobal istiləşməyə qarşı mübarizəyə də öz töhfəsini verəcək"

***Azərbaycanda bir gündə 650 min ağacın əkilməsi ölkənin gözəl təbii landşaftını qoruyub saxlamaqla yanaşı, qlobal istiləşməyə qarşı mübarizəyə də öz töhfəsini verəcək. Bunu AZƏRTAC-a müsahibəsində İsrail Dövlətinin Azərbaycandakı səfiri Dan Stav Birinci vitse-prezident Mehriban Əliyevanın dahi şair və mütəfəkkir İmadəddin Nəsiminin yubileyi ilə əlaqədar bir gündə 650 min ağac əkilməsi təşəbbüsünə münasibət bildirərək deyib.***

"Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın respublika ərazisində 650 min ağacın əkilməsi ilə bağlı böyük əhəmiyyət kəsb edən bu təşəbbüsü yüksək qiymətləndirirəm. Bu təqdirəlayiq təşəbbüs Azərbaycanın gözəl təbii landşaftını qoruyub saxlamaqla yanaşı, qlobal istiləşməyə qarşı mübarizəyə də öz töhfəsini verəcək. Çünki bu ağaclar böyüdükdən sonra insanlar tərəfindən atmosferə atılan onlarla karbon qazını udacaq. Azərbaycanın bu təşəbbüsünə daha çox ölkə qoşularsa, bu, xeyli miqdarda karbon qazının emissiyasına və qlobal istiləşmənin əhəmiyyətli dərəcədə yavaşımasına səbəb olacaq", - deyə səfir qeyd edib.

Diplomat bildirib ki, meşələrin bərpasını prioritet məsələ kimi gündəmdə saxlayan İsrail Dövləti belə bir təşəbbüsü tam dəstəkləyir. O xatırladıb ki, yəhudilər də bir zamanlar səhralaşmanı sürətləndirən və əsrlərboyu davam edən meşələrin kəskin qırılması prosesi ilə üzləşmişdilər. Yəhudi liderlər İsrailin meşə ərazilərinin bərpasını əhatə edən böyük kampaniyaya rəhbərlik etmək üçün "Keren Katemet Leisarel" adlı təşkilat yaratmışdılar. Həmin təşkilat tərəfindən 1904-cü ildən bu günə qədər 240 milyon ağac əkilib, bir çox yeni meşəliklər salınıb və ya köhnələri bərpa edilib.



# Birinci vitse-prezident Mehriban Əliyeva Konstitusiya Günü münasibətilə Azərbaycan xalqını təbrik edib



**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva 12 noyabr - Konstitusiya Günü münasibətilə rəsmi "Instagram" səhifəsində Azərbaycan xalqını təbrik edib. AZƏRTAC xəbər verir ki, təbrikdə qeyd edilir: "Əziz həmvətənlər!**

Sizi Azərbaycan Respublikasının Konstitusiya Günü münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən xoş arzularımı çatdırıram. Arzu edirəm ki, Azərbaycanın uğurlu inkişafı davamlı olsun, ölkəmizdə daim sülh, sabitlik, əmin-amanlıq və təhlükəsizlik hökm sürsün!"

# Konstitusiyamız və milli ideologiyamız

**Azərbaycan Respublikası Prezidentinin ictimai-siyasi məsələlər üzrə köməkçisi Əli Həsənov "Facebook" səhifəsində "Konstitusiyamız və milli ideologiyamız" adlı status paylaşıb.**



AZƏRTAC statusu təqdim edir: Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul edilməsindən 24 il ötür. Ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan və 1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilən Əsas Qanun müstəqil Azərbaycanın ilk, ümumilikdə isə ölkəmizin beşinci Konstitusiyasıdır. 1918-1920-ci illərdə cəmi 23 ay mövcud olmuş Azərbaycan Xalq Cümhuriyyəti dövlətin əsas qanununu qəbul edə bilməmişdi. Ona görə də ilk konstitusiya RSFSR-in konstitusiyası əsasında hazırlanmış və 1921-ci il mayın 19-da qəbul olunmuş Azərbaycan SSR-in Konstitusiyası hesab olunur. Azərbaycanın sayca ikinci konstitusiyası 1927-ci ilin mart ayında qəbul edilib. O zaman Azərbaycan Zaqafqaziya Sovet Federativ Sosialist Respublikasının tərkibində idi və bu şəkildə də SSRİ-yə daxil edilmişdi. 1936-cı ildə SSRİ-nin yeni əsas qanunu qəbul edildikdən sonra ona müvafiq olaraq, 1937-ci ildə Azərbaycanın sayca üçüncü konstitusiyası qəbul olundu. Azərbaycan SSR-in sayca dördüncü konstitusiyası 1978-ci ildə, 1977-ci il SSRİ Konstitusiyası əsasında qəbul edildi. Bu konstitusiyanın hazırlanması və qəbulu o zaman Azərbaycana rəhbərlik edən Heydər Əliyevin iştirakı ilə həyata keçirilmişdi. Həmin sənəd milli maraqların qorunması baxımından əvvəlkilərdən xeyli fərqlənirdi. Məhz ümummilli lider Heydər Əliyevin təkidi ilə 1978-ci il konstitusiyasında Azərbaycan dilinin dövlət dili statusu əks olundu. Əvvəlki konstitusiyalarda Dağlıq Qarabağ Muxtar Vilayətinə ayrıca fəsil həsr olunmuş, onun hüquqi statusu şişirdilmişdi. Bu konstitusiyada isə Dağlıq Qarabağ və onun orqanlarının hüquqi statusu "Yerli dövlət hakimiyyəti orqanları" fəslinin içərisinə salınmış, yəni ona müstəsna əhəmiyyət verilməsinin qarşısı alınmışdı. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycan dövlətinin qurucusu olduğu kimi, onun milli ideologiyasının - azərbaycançılığın da, azərbaycançılıq ideologiyasına söykənərək yaradılan ilk konstitusiyanın da banisi hesab olunur. 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, həm də ulu öndər Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. Bu konstitusiya müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa və sərbəst bazar iqtisadiyyatına təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi həyatında tətbiq olunan əsas normaları özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsi istiqamətində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi bir sənəddir.

Konstitusiya və milli ideologiyanın vəhdətindən bəhs edən Ümummilli Lider öz çıxışlarında vurğulayırdı ki, milli ideologiyamız, ilk növbədə, dövlətimizin konstitusiya normaları, xalqımızın tarixi keçmişinə, milli-mənəvi dəyərlərinə, mövcud adət-ənənələrə, ölkəmizin bu günü və gələcəyinə bağlı olmalıdır. Görünür, elə bu yanaşmanın nəticəsidir ki, Heydər Əliyevin yaratdığı azərbaycançılıq məfkurəsi və onun məzmununu təşkil edən əsas prinsiplər ölkə konstitusiyasında konkret formada öz əksini tapmışdır. Ümummilli Lider dövlətçilik maraqlarının qorunmasından danışanda, ilk növbədə, ölkənin ali qanununun müddəalarına dönmədən əməl edilməsini xüsusi vurğulayırdı, konstitusiya normalarının hər bir Azərbaycan vətəndaşının ümummilli vəzifəsi olduğunu qeyd edirdi. Bu normalar, Əsas Qanunun preambula hissəsində təsbit olunub və ilk növbədə: ölkənin müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün qorunmasını, vətəndaş cəmiyyətinin bərqərar olunmasını, xalqın iradəsinə, qanunların aliliyinə əsaslanan hüquqi, dünyəvi dövlət quruculuğunu, ədalətli iqtisadi və sosial qaydalara uyğun olaraq hamının layiqli həyat səviyyəsinin təmin edilməsini, milli-mənəvi dəyərlərə sadiqliyi, bütün dünya xalqları ilə dostluq, sülh və əmin-amanlıq şəraitində yaşamağı və digər ümumbəşəri dəyərlərə hörmət hissini ehtiva edir.

Heydər Əliyev həm Konstitusiyamızın, həm də azərbaycançılıq ideologiyasının əsasına, ilk növbədə, bütün vətəndaşların sabit, firavan və dinamik inkişafına cavab verən milli dövlətçiliyi - müstəqil Azərbaycan Respublikasını qoyurdu. Ulu Öndər çıxışlarında bu məsələyə belə şərh verirdi: "Müstəqil Azərbaycan dövləti bizim üçün ən qiymətli tarixi nailiyyətdir və onun qorunması, əbədiyaşar edilməsi hər bir azərbaycanlının müqəddəs borcudur". Milli ideologiyadan danışarkən Heydər Əliyev qeyd edirdi ki, "biz, ilk növbədə, bütün xalqımızı, bütün soydaşlarımızı Azərbaycanın müstəqil dövlətçiliyi ətrafında birləşdirməliyik, gənclərimizi, gələcək nəsilləri dövlətçilik prinsiplərinə sadiq ruhda tərbiyə etməliyik". Məzmunundan da göründüyü kimi, həm Əsas Qanunun, həm də azərbaycançılıq ideologiyasının mərkəzində, hər şeydən əvvəl dövlətçilik maraqları - güclü Azərbaycan dövlətinin yaradılması və bütün sahələr üzrə inkişafının təmin edilməsi prinsipi dayanır. Bəhs olunan güclü Azərbaycan dövləti anlayışı xalqımızın çoxəsrlik dövlətçilik ənənələrinə söykənərək onları daim yaşadacaq və zənginləşdirəcək bir siyasi-iqtisadi və sosial-mənəvi idarəçilik institutunun mövcudluğunu ehtiva edir. Bu dövlətin sabit və multikultural ictimai-siyasi həyatı, təkmil mərkəzi və yerli idarəetmə sistemi, işlək qanunları olmalı, hər bir vətəndaşının imkan və bacarıqları hakimiyyət tərəfindən lazımi səviyyədə dəyərləndirilməli, hər bir vətəndaş etnikdini və sosial mənsubiyyətindən asılı olmayaraq, yalnız şəxsi qabiliyyətinə görə proseslərə cəlb edilməli, ölkədə tam şəffaf və tolerant mühit yaradılmalıdır.

Konstitusiyada və azərbaycançılıq ideologiyasında irəli sürülən digər əsas tələb (norma) ümumazərbaycançılıq (ümumvətəndaşlıq) ideyasına söykənən milli birlik və vətəndaş həmrəyliyi prinsipidir. Bu prinsip müasir Azərbaycan dövlətçiliyinin təməlində dayanır və bütün digər siyasi, sosial-etnik maraqlardan üstün tutulur. Ümumazərbaycançılıq qayəsinin təməlində ədalətli və hamı üçün məqbul sayılan ictimai həyat normalarına əməl edilməsi, ölkənin hər bir vətəndaşının Azərbaycan dövlətinə bağlılığı, onu özünün güvənc yeri sayması, doğma Vətəni qürur mənbəyi hesab etməsi, başqa etnik-dini mənsubiyyəti olan vətəndaşlarla multikultural birgəyaşayış normalarının bərqərar olması və s. kimi tələblər dayanır. Bu tələblərin həyata keçirilməsi və qorunması Azərbaycanda yaşayan, fəaliyyət göstərən, bu dövlətin idarəçiliyinə iddia edən hər bir vətəndaş və təşkilat üçün əsas olmalıdır. Əgər hər hansı şəxs və yaxud təşkilat yaşadığı cəmiyyəti, təmsil etdiyi dövləti, konstitusiya ilə müəyyənləşdirilmiş ölkədaxili münasibətlər və dəyərlər sistemini qəbul edirsə, deməli, dövlətin də bu sistemin təminatçısı olmasını mütləq qəbul etməlidir. Bir sözlə, bu rakursdan baxdıqda, konstitusiya normaları və azərbaycançılıq ideologiyası artıq hansısa bir siyasi liderin, partiyanın, yaxud siyasi təşkilatın deyil, ölkənin milli maraqlarına söykənərək, bütün Azərbaycan xalqının ümumi mənafelərinin ifadəsinə çevrilib. Belə olan halda, bu ideologiyaya müxalifətdə durmaq ümumxalq maraqlarına, ümumxalq fikrinə və mövqeyinə müxalifətdə durmağa bərabərdir.

Bir faktı da xüsusi vurğulamaq istəyirəm ki, başqa sahələrdə olduğu kimi, milli-ideoloji baxışlar sisteminin formalaşmasında da Heydər Əliyev həm tarixilik prinsipini, həm də varislik ənənələrini qoruyub saxladı. Ulu öndər Azərbaycanın XIX əsrin sonu, XX əsrin birinci yarısında yaşayıb-yaratmış milli-vətənpərvər və maarifçi-demokrat ziyalılarının, Azərbaycan Xalq Cümhuriyyəti qurucularının birləşdirici ideya kimi irəli sürdükləri azərbaycançılıq ideologiyasına müraciət etdi. Həm də nəinki sadəcə müraciət etdi, onu real və dolğun məzmunla zənginləşdirərək dövlət siyasəti səviyyəsinə qaldırdı. Konstitusiyamızda və milli ideologiyamızda dövlətçilik maraqları, milli birlik və vətəndaş həmrəyliyi prinsipləri ilə yanaşı, həm də yeni vətəndaş amilinə - millətini və xalqını sevən, dövlətinin yolunda hər bir fədakarlığa hazır olan, milli-mənəvi dəyərlərini yaşadan, dövlət dilini bilən və sevən, ədalətli və təşəbbüskar, fəal mövqeli və iradəli Azərbaycan vətəndaşı yetişdirilməsi ideyasına xüsusi önəm verilib. Heydər Əliyev Azərbaycan gənclərini sərbəst düşüncə tərzinə malik, cəmiyyətdə və dünyada gedən proseslərdən baş çıxara bilən, vətənpərvər, dövlətçilik təfəkkürü güclü olan savadlı, bacarıqlı, fəal insanlar kimi görürdü. Ümummilli lider deyirdi: "Biz elə bir nəsil yetişdirməliyik ki, o, öz dövlətini sevsin, onu qorumağı, yaşatmağı və bütün dünyada layiqincə təmsil etməyi bacarsın. Gənc nəsil öz milli adət-ənənələrinə sadiq olmalı, ana dilini, milli mədəniyyətimizi dərindən öyrənməli, eyni zamanda, bəşəri dəyərləri mənimsəməlidir".

Beləliklə, ölkə tarixinin mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Ulu Öndərin yaratdığı dövlətçilik təlimi və onun ayrılmaz hissəsi olan konstitusiya müstəqil Azərbaycanın bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir, ölkənin davamlı inkişafı və tərəqqisinə xidmət göstərir. Təməli Heydər Əliyev tərəfindən qoyulmuş səmərəli dövlət siyasətini ardıcıl olaraq uğurla davam etdirən Azərbaycan Prezidenti İlham Əliyev Ulu Öndərin müstəqil dövlət quruculuğu istiqamətindəki nəzəri və praktiki irsinə qiymət verərək demişdir: "1993-2003-cü illər ölkəmizdə sabitlik və inkişaf illəri kimi tarixdə qalacaqdır. Çünki məhz o illərdə dövlətçiliyin əsasları qoyuldu, Azərbaycan dövləti quruldu, 1995-ci ildə müstəqil dövlətin Konstitusiyası qəbul edildi, dövlətçiliyin ideoloji əsasları - azərbaycançılıq məfkurəsi formalaşdırıldı... Heydər Əliyev tərəfindən yaradılan bu əsaslar hazırda Azərbaycan xalqına yol göstərir".

Milli dövlətimiz durduqca, ümummilli lider Heydər Əliyevin nurlu ideyalarından və ümumbəşəri dəyərlərdən yoğurulan Azərbaycan Konstitusiyası və azərbaycançılıq məfkurəsi dövlətimizin gələcək inkişafı və tərəqqisi yoluna daim işıq salacaqdır.

# Azərbaycan Konstitusiyası və insan hüquqları

***Dünyanın özü kimi qədim olan (yəqin ki, cəmiyyətlə birgə yaranan) insan hüquqları ideyasının fəlsəfi əsaslarının işlənib hazırlanması və bu ideya uğrunda səmərəli mübarizə aparılması son üç əsrin payına düşmüşdür. 18-ci əsrdə Avropa ayrilmaz insan hüquqlarının (yaşamaq hüququ, azad olmaq hüququ) və vətəndaş hüquqlarının (söz və vicdan azadlığı, təhlükəsizlik və mülkiyyət hüququ) meydana çıxmasının şahaidi olmuşdur. Siyasi hüquqlar (ümumi seçki, gizli səsvermə, respublika quruluşu, xalq özünüidarəsi, cəmiyyət və birliklərin sərbəstliyi, siyasi həyatda və hakimiyyət sistemində iştirak etmək və s. hüquqlar) 19-cu əsrdə əldə edilmişdir. 20-ci əsr bütün bu hüquqlar sırasına sosial hüquqları (sosial təminat hüququ, əmək, təhsil, tibbi yardım hüquqları, qadın bərabərliyi və uşaqların müdafiə hüquqları) əlavə etmiş, insan hüquqları ideyasını və həmin ideyanı həyata keçirmək təcrübəsini bütün dünyaya yaymışdır.***

Insan hüquqları və dövlət hakimiyyətinin məhdudlaşdırılması ideyası bu gün dünyada ictimai inkişaf prosesinə istiqamət verən mühüm ideyalardan biridir. Insan hüquqları ciddi elmi araşdırmaların predimetinə, daxili siyasətlə bağlı qızğın müzakirə və mübahisələrin mövzusuna, əksər ölkərin Konstitusiyasının ana xəttinə, sülh və əməkdaşlıq haqqında beynəlxalq sazişlərin başlıca məğzinə çevrilmişdir. Dünyanın əksər ölkələrində insan haqları insanın mövcudluğunun və milli inkişafın ən vacib şərti kimi qəbul olunur. Bununla yanaşı, insan hüquqları ideyasının həyata keçirilməsi hələ də bir çox anlaşılmazlıqların, ziddiyyətlərin, ölkədaxili və beynəlxalq gərginliklərin mənbəyi olaraq qalır.

Bütün digər sahələrdə olduğu kimi, Azərbaycanda da insan hüquqları sahəsində islahatların aparılması, zəruri hüquqi bazanın və institusional əsasların formalaşması məhz Ümummilli Lidermiz Heydər Əliyevin 1993-cü ildə siyasi hakimiyyətə qayıdışından sonra baş vermişdir. Ən əsası isə Ulu Öndər dövlətçiliyimiz təhdid edən təhlükəli tendensiyaları aradan qaldırdıqdan, müstəqil Azərbaycanın ideoloji-iqtisadi əsaslarını (Azərbaycançılıq ideologiyası və "Əsrin müqaviləsi") möhkəmləndirdikdən az sonra müəllifi olduğu 1995-ci il Konstitusiyasında insan hüquq və azadlıqlarını təsbit etdi və hüquqi təminat altına aldı. Beləliklə, olduqca qısa zaman kəsiyində müdrik rəhbərimizin dəmir məntiqi, silinməz dəsti xəttinin, zəngin həyə təcrübəsi və işıqlı zəkasının ən böyük əsəri olan, dünyn standartlarının tələblərinə tam dolğunluğu ilə cavab verən konstitusiya layihəsi hazırlanaraq ümumxalq səsvermısinə təqdim olundu. Həmin sənəd 12 noyabr 1995-ci ildə ümumxalq səsverməsi- referendum yolu ilə qəbul olundu. Bu gün Əsas qanunu iftixar hissi ilə xalqımız haqlı olaraq "Heydər Əliyev konstitusiyası" adlandırır, eyni zamanda onu Heydər Əliyevin siyasi yaradıcılığının şah əsəri hesab edir. Bu, xalqın rəhbərinə olan sonsuz və ülvi məhəbbətin ifadəsi, konstitusiyanın hazırlanmasında, müzakirəsində və qəbul edilməsində yorulmaz fəaliyyətinə verdiyi halal qiymətdir. Konstitusiyanın qəbul edməsi, xalqımızın həyatında və dövlətçiliyimizin qurulmmasında yeri bir mərhələnin başlanğıcını qoydu, respublikada dövlət quruculuğu sahəsində yeni imkanlar açdı.



**Siyavuş Novruzov**
**Milli Məclisin İctimai birliklər və dini qurumlar komitəsinin sədri, YAP İcra katibinin müavini**

Bu mühüm sənədin ən üstün və fərqli cəhətlərindən biri onun müddəalarında insanlara dövlət və cəmiyyət tərəfindən verilmiş və verilməsi zəruri olan, habelə cəmiyyət üzvləri tərəfindən etibar edilən və etibar edilməsi mümkün sayılan bütün hüquqların, azadlıqların və vəzifələrin bütöv və vəhdət halında öz əksini taparaq bir-birini tamamlamasıdır. Konstitusiyanın ən üstün və fərqli cəhətlərindən digəri budur ki, orada ictimai quruluş haqqında konkret müddəa yoxdur, iqtisadi münasibətlərin forma və inkişafını məhdudlaşdıran heç bir sədd müəyyən edilməmişdir. Bu da iqtisadi sahədə insan azadlığı və onun fəaliyyətinin sərbəstliyinə tam təminat verir.

Bu sənədin əsas dəyər və məziyyətləri ondan ibarətdir ki, məzmunca xalqın iradəsini ifadə edir, Azərbaycan dövlət quruluşunun təsisatını, hüquqi əsaslarını göstərir. Azərbaycanda dövləti idarəetməni prinsiplərini, dövlət və xalq arasında münasibətləri əks etdirir, hüquqi, demokratik dünyəvi dövlətin qurulması üçün bütün hüquqi əsasları yaradır. Konstitusiya mahiyyətcə ölkənin tam müstəqilliyini, ərazi bütövlüyünü, Azərbaycan xalqının, vətəndaşlarının hər birinin hüquqlarının toxunulmazlığını, respublikamızın bölünməzliyini, hakimiyyətin heç bir qüvvə tərəfindən mənimsənilə bilməzliyini təmin edir. Konstitusiyaya görə respublikamızda hakimiyyətin yeganə mənbəyi Azərbaycan xalqıdır. Hər bir hakimiyyət yalnız xalqın iradəsi əsasında əldə oluna bilər. Hakimiyyətin təşkili prinsipi isə dünyanın demokratiya cəhətdən inkişaf etmiş ölkələrində əsas meyar kimi götürülərək sınaqdan çıxmış səlahiyyət bölgülərin həyata keçirilməsi. Beləliklə, hakimiyyət icra, qanunverici və məhkəmə hakimiyyətlərinə bölünərək, yüksək hüquqi inperativlərə və hüququn aliliyinə tabe edilmişdir. Icra, qanunverici və məhkəmə orqanlarının hüquqları konkret və düzgün müəyyənləşdrildiyindən hakimiyyət orqanlarının bir-birini çəkindirə bilməsi də real sürətdə təmin olunmuşdur.

Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquq və azadlıqlarını ali dəyər kimi qiymətləndirərək, onlara hörməti, insan hüquq və azadlıqlarının qorunmasını qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının vəzifəsi kimi müəyyən etmişdir.

Hüquq və dövlətin ən mühüm prinsiplərindən biri olan insanların təbii, ayrılmaz və demokratik hüquqlarının geniş kompleksini qanunvericilik yolu ilə təsbit etmək, onun reallığına, hüquqi madd, mənəvi və digər üsullarla təminat vermək, hər hansı qəsddən hüquqi vasitələrlə etibarlı şəkildə müdafiə etməkdir ki, bu Konstitusiyamızda öz əksini tam dolğunluğu ilə tapmışdır. Azərbaycan Respublikası Konstitusiyasının təxminən üçdə biri (24-71-ci maddələr) məhz birbaşa insan hüquq və azadlıqlarının təsbitinə və qorunmasına həsr olunmuşdur. "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" adlanan III fəsil məhz bu barədədir. Orada insanlara doğulduğu andan mənsub olan toxunulmazlıq, pozulmaz və ayrılmaz hüquq və azadlıqların hər biri ətraflı şərh edir, onların reallaşdırılmasına təminat verir, müdafiəsi təsbit olunur. Yeni Konstitusiyamız hüquqları və azadlıqları pozulan insanları süründürməçilikdən, ötür-ötür oyunundan xilas edərək, 71-ci maddənin 7-ci bəndində, hüquqi dövlətin təbiətinə uyğun olaraq göstərilmişdir ki, insan və vətəndaş hüquqlarının və azadlıqlarının pozulması ilə əlaqədar mübahisələri məhkəmələr həll edir. Bu o deməkdir ki, məhkəmədən başqa heç bir orqan həmin hüquqların pozulması ilə əlaqədar mübahisəni həll edə bilməz. Mütərəqqi cəhət odur ki, Azərbaycan Konstitusiyasının hazırlanması zamanı bu sahədə o dövrə qədərki dünya təcrübəsi, insan hüquq və azadlıqlarının keçdiyi inkişaf yolu ümumiləşdirilmiş və ölkəmizin reallıqlarına, ənənələrinə tam uyğunlaşdırılmışdır.

Lakin Azərbaycan Respublikası üçün beynəlxalq və dövlətdaxili hüququn qarşılıqlı əlaqəsinin müəyyən edilməsi üzrə siyasətin müəyyənləşdirilməsi, nəhayət öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərin yerinə yetirilməsi üzrə ilk implementasiya formalarının seçilməsi mühüm yer tutur. Beynəlxalq hüquq ədəbiyyatında beynəlxalq hüquq normalarının implementasiyasının müxtəlif formaları fərqləndirilir.

Azərbaycan Respublikası timsalında bü məsələlərin təhlil edilməsi daha maraqlı olardı. Belə ki, AR Konstitusiyasının 148-ci maddəsinin 2-ci hissəsi AR-in tərəfdar çıxdığı beynəlxalq müqavilələri Azərbaycan Respublikasının qanunvericilik sisteminin tərkib hissəsi kimi müəyyən edir. Göründüyü kimi Azərbaycan Respublikası beynəlxalq hüquq normalarının implementasiyası zamanı inkorporasiya yolunu seçmişdir. Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsində birbaşa göstərilir ki, Azərbaycan Respublikasının qanunvericilik sisteminə daxil olan normativ hüquqi aktlar ilə (Azərbaycan Respublikası Konstitusiyası ilə və referendumu qəbul edilən aktlar istisna olmaqla) Azərbaycan Respublikasının tərəfdar çıxdığı dövlətlərarası müqavilələr arasında ziddiyyət yaranarsa, həmin beynəlxalq müqavilələr tətbiq edilir. Lakin qeyd etmək lazımdır ki, bu zaman məsələ beynəlxalq müqavilənin müddəaları ilə Azərbaycan Respublikasının normativ hüquqi aktları arasında mülkün ziddiyyətləri həll etmək rolunu oynayır.

Insan hüquqlarının müdafiəsi istiqamətində Azərbaycan Respublikası Konstitusiyasının 12-ci maddəsinin müddəaları çox əhəmiyyətlidir. Belə ki, 12-ci maddənin 1-ci hissəsində dövlətin ali məqsədi kimi insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi göstərilirsə 12-ci maddənin 2-ci hissəsində isə qeyd edilir ki, bu konstitusiyada sadalanan insan və vətəndaş hüquqları və azadlıqları Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə uyğun tətbiq edilir.

Halhazırda müstəqil Azərbaycan görkəmli dövlət xadimi, Prezident İlham Əliyevin rəhbərliyi altında bütün sahələrdə uğurla inkişaf edir. Azərbaycanda aparılan hüquqi islahatlar da ölkəmizin regional lider imicinə uyğun şəkildə mühüm tərəqqiyə nail olur. Bütün bu nailiyyətlərin təməlində isə gələcəyə yönələn hüquqi "çərçivə" və ya "layihə" potensialı yüksək olan 1995-ci ilin "Heydər Əliyev Konstitusiyası" dayanır və hələ uzun illər boyu uğurla dayanacaqdır.

## Ziyafət Əsgərov: "Azərbaycan əraziləri hesabına ikinci erməni dövlətinin yaradılmasına yol verə bilmərik"

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi dəfələrlə bəyan edildiyi kimi, yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll oluna bilər. Azərbaycanın ərazi bütövlüyü isə danışıqlar mövzusu deyil. AZƏRTAC xəbər verir ki, bu sözləri Milli Məclis Sədrinin birinci müavini, parlamentin müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov Rusiyanın Xarici İşlər naziri Sergey Lavrovun Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi ilə bağlı fikirlərinə münasibət bildirərkən deyib.



Ziyafət Əsgərov bildirib ki, ermənilər özləri üçün bir dövlət yaradıblar, artıq ikincisini yaratmaq arzusundadırlar. Dağlıq Qarabağ əzəli Azərbaycan torpağıdır və burada başqa söhbət də ola bilməz. Dəfələrlə bəyan etmişik ki, biz, əlbəttə, Azərbaycan ərazisi daxilində ermənilərə öz müqəddəratını təyinetmə hüququ verə bilərik, yalnız Azərbaycanın ərazisi daxilində. Biz Azərbaycan əraziləri hesabına ikinci erməni dövlətinin yaradılmasına yol verə bilmərik. Hansısa muxtariyyətdən söhbət gedə bilər, lakin bu, mütləq şəkildə Azərbaycanın ərazisi daxilində olmalıdır.

## Samir Şərifov: Büdcənin ənənəvi olaraq sosialyönümlülüyü təmin ediləcək

Azərbaycanda köklü sosial-iqtisadi islahatların davam etməsini nəzərdə tutan 2020-ci ilin büdcəsi Milli Məclisə dövlətimizin başçısı tərəfindən təqdim olunub. Büdcə zərfi yeni layihələr, sosial-iqtisadi hədəflər nəzərə alınaraq tərtib olunub. Büdcənin tərtibində ölkənin makroiqtisadi proqnozları əsas götürülüb.



Bunu Maliyyə naziri Samir Şərifov Milli Məclisin bu gün keçirilən plenar iclasında büdcə müzakirələri zamanı çıxış edərkən deyib.

Nazir qeyd edib ki, 2020-ci il və ortamüddətli dövrdə Azərbaycanın milli iqtisadiyyatının başlıca sektorları üzrə Strateji Yol xəritələrinin icrası, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulmuş dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi üzrə tədbirlər büdcə xərclərinin əsas istiqamətlərindən biri olacaq. Gələn il üçün ümumi daxili məhsulun real iqtisadi artımı 3 faiz, qeyri-neft sektorundan gələn artımlar isə 3,8 faiz proqnozlaşdırılır. Büdcənin ənənəvi olaraq sosialyönümlülüyü təmin ediləcək. 2020-ci ilin dövlət büdcəsinin gəlirləri 24 milyard 134 milyon manat təşkil edəcək. Gəlirlərin 10 milyard 605 milyon manatı, yəni, 43,9 faizi qeyri-neft sektoru üzrə daxilolmaların, 13 milyard 530 milyon manatı, yəni, 56,1 faizi isə neft gəlirlərinin payına düşəcək. Vergi orqanlarının xətti ilə büdcəyə 7 milyard 875 milyon manat, gömrük orqanlarının xətti ilə isə 4 milyard manat daxilolmalar proqnozlaşdırılır.

# Milli Məclisin növbəti plenar iclası keçirilib

**Dünən Milli Məclisin növbəti plenar iclası keçirilib. Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov və hökumətin üzvləri iclasda iştirak ediblər.**

İclası açan Milli Məclisin Sədri Oqtay Əsədov "Azərbaycan Respublikasının 2020-cu il dövlət büdcəsi haqqında" qanun layihəsi və büdcə zərfinə daxil olan digər qanun layihələrinin müzakirə ediləcəyini bildirib. Gündəliyə 11 məsələnin daxil edildiyini vurğulayan Sədr bugünkü iclasın ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə qəbul edilən Konstitusiya Gününə təsadüf etdiyini deyib və bu münasibətlə iclas iştirakçılarını təbrik edib.

Gündəliyin təsdiqindən sonra çıxış edən Sədr Oqtay Əsədov deyib: "Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin uğurlu inkişaf strategiyası 2019-cu ilin ötən dövründə də iqtisadiyyatın yüksəlişini təmin edib. Ölkənin bütün makroiqtisadi göstəricilərində artım müşahidə olunur.

Ötən ilin aprelində möhtərəm Prezidentimizin andiçmə mərasimindəki çıxışında müəyyənləşdirdiyi strateji istiqamətlər üzrə həyata keçirilən islahatlar iqtisadi inkişafımıza yeni dinamika gətirib. İqtisadiyyatın dövlət tərəfindən tənzimlənməsi sahəsində, xüsusən vergi və gömrük sistemində islahatlardan sonra bu gün geniş miqyaslı struktur islahatları aparılır, dövlət idarəçiliyinə yeni yanaşmalar tətbiq edilir, o cümlədən gəncləşdirmə siyasəti həyata keçirilir.

Ona görə də tamamilə məntiqlidir ki, Dünya Bankının hazırladığı sonuncu "Doing Business" hesabatına əsasən, Azərbaycan dünyanın 20 ən islahatçı ölkəsindən biri olub. Biznesə başlama göstəricisinə görə ölkəmiz dünyada 9-cu yeri tutur. Azərbaycanda ardıcıl xarakter daşıyan islahatlar iqtisadi inkişaf üçün əvvəlki illərdə yaradılmış potensialı daha da möhkəmləndirir və artırır.

Bu gün Milli Məclisdə müzakirəsinə başladığımız büdcə zərfi sənədləri ölkə iqtisadiyyatında müşahidə olunan müsbət dəyişiklikləri dolğun əks etdirir. Məruzə və çıxışlarda bu barədə geniş məlumat veriləcək, odur ki, mən yalnız bir neçə rəqəmi qeyd edəcəyəm.

Ötən 9 ayda ümumi daxili məhsulun artımı 2,5 faiz təşkil edib. Burada diqqəti çəkən məqam qeyri-neft sektorunun, qeyri-neft sənayesinin və kənd təsərrüfatının sürətlə artmasıdır.

Oktyabrın 15-də keçirilmiş iqtisadi müşavirədə dövlətimizin başçısı İlham Əliyevin dediyi kimi, "...son illərdə aparılan islahatlar, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı atılan addımlar öz bəhrəsini verir. Deyə bilərəm ki, qeyri-neft sənayemizin 15 faizdən çox artması dünya miqyasında rekord göstərici hesab oluna bilər".

Sədr daha sonra bildirib ki, ölkəmizin valyuta ehtiyatları son 1 ildə 9 faizdən çox artaraq 48,5 milyard dollar təşkil edib. 9 ayda ölkə iqtisadiyyatına 10 milyard manatdan çox investisiya yatırılıb. Bu vəsaitin 60 faizindən çoxu qeyri-neft sektoruna yönəldilib. Bu müddət ərzində əhalinin gəlirləri 8,9 faiz artıb, inflyasiya isə 2,6 faiz təşkil edib. Bunlar əhalinin sosial rifahının daha da yüksəlməsinin mühüm göstəriciləridir.



Oqtay Əsədov vurğulayıb ki, parlamentə təqdim edilən sənədlərdən göründüyü kimi, iqtisadi göstəricilərin artımı 2020-ci ildə də davam edəcək. İlk növbədə bunu söyləmək lazımdır ki, gələn il dövlət büdcəsinin gəlirləri 24,1 milyard manat, xərcləri 26,9 milyard manat olacaq. Bu, cari ilin göstəricilərindən müvafiq olaraq 4,2 faiz və 6,8 faiz çoxdur.

"Proqnozlara görə, əsas iqtisadi göstərici olan ümumi daxili məhsul 3 faiz, o cümlədən qeyri-neft sektorunda yaradılacaq məhsul 3,8 faiz artacaq. Bunun nəticəsində ümumi daxili məhsulda qeyri-neft sektorunun payı 70 faizə yaxınlaşacaq.

Hər il olduğu kimi, 2020-ci ilin dövlət büdcəsi də əhalinin sosial rifahının yüksəlməsinə, dövlətin milli təhlükəsizliyinin və müdafiə qabiliyyətinin güclənməsinə, iqtisadiyyata investisiya qoyuluşunun daha da artmasına, kənd təsərrüfatının stimullaşdırılmasına, dövlət borcu üzrə öhdəliklərin icrasına möhkəm maliyyə əsasları yaradır.

Növbəti ilin dövlət büdcəsinin xərclərinin strukturunda diqqəti çəkən mühüm məqamlardan biri cari xərclərin həcminin artmasıdır. Belə ki, 2020-ci ildə cari xərclərin həcmi bu ilə nisbətən ciddi şəkildə, yəni 40 faizə yaxın artacaq.

Ölkə üçün strateji sahələr olan təhsil xərcləri 38 faizdən çox, elm xərcləri 42 faiz, müdafiə və təhlükəsizlik xərcləri 21 faiz artırılacaq. Digər strateji sahələrdə də ciddi artımlar nəzərdə tutulur.

Büdcə sənədlərindən göründüyü kimi, 2020-ci ilin büdcəsi də sosialyönümlü olacaq. Gələn il sosial müdafiə və sosial təminat xərcləri 31 faiz artırılacaq. Nəticədə dövlət büdcəsinin xərclərində sosial yönümlü xərclərin xüsusi çəkisi 39 faizə yaxınlaşacaq.

2019-cu ildə həyata keçirilmiş iki sosial paketin icrasının gələn il davam etdirilməsi üçün 4 milyard manatadək əlavə vəsait nəzərdə tutulub. Qeyd etmək istərdim ki, bu sosial paketlərin əhatə dairəsinə 4 milyon 200 min nəfər, bütövlükdə isə hər bir azərbaycanlı ailəsi düşür. 2020-ci ildən icbari tibbi sığortanın tətbiqi ilə əlaqədar olaraq səhiyyə xərcləri 1 milyard 369 milyon manata çatdırılır. Məcburi köçkünlərin sosial müdafiəsinin gücləndirilməsinə və mənzil-məişət şəraitinin yaxşılaşdırılmasına göstərilən daimi diqqət gələn il də davam etdiriləcək.

2020-ci ilin dövlət büdcəsinin layihəsi və büdcə zərfinə daxil olan sənədlər parlament komitələrinin birgə iclaslarında ətraflı müzakirə olunub. Bu müzakirələrdən sonra komitələr dövlət büdcəsini Milli Məclisin plenar iclasına tövsiyə ediblər. Hesablama Palatası da büdcə zərfinə öz müsbət rəyini bildirib. Hesab edirəm ki, plenar iclaslarda aparacağımız müzakirələr səmərəli olacaq ",- deyə Milli Məclisin Sədri vurğulayıb.

Sonra İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Ziyad Səmədzadə çıxış edərək bildirib ki, Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsindədir. Azərbaycan dövləti öz büdcə parametrlərinin daha da yaxşılaşdırılması üçün bütün tədbirləri görür. Komitə sədri onu da söyləyib ki, büdcə layihəsi "Büdcə sistemi haqqında" Qanuna uyğun olaraq hazırlanıb və bütün komitələrdə geniş müzakirələr aparılıb. Səslənən təkliflərə münasibət bildirilib. Gələn ilin büdcəsi həm sosial, həm də investisiya yönümlüdür. Büdcə layihəsi başlıca iqtisadi sənəd olaraq 2020-ci ildə həyatımızın müxtəlif istiqamətlərini əhatə edəcəyini, dünya və ölkə iqtisadiyyatında gözlənilən meyllərin təhlilinə tam uyğundur.

İclasda iştirak edən Maliyyə naziri Samir Şərifov gələn ilin büdcəsinin əsas parametrləri barədə məlumat verərək deyib ki, 2020-ci il və ortamüddətli dövrdə milli iqtisadiyyatın başlıca sektorları üzrə Strateji Yol xəritələrinin icrası, o cümlədən dövlət büdcəsinin vəsaiti hesabına həyata keçirilməsi nəzərdə tutulub dövlət proqramlarının və tədbirlərinin maliyyələşdirilməsi üzrə tədbirlər büdcə xərclərinin əsas istiqamətlərindən biri olacaq. Ənənəvi olaraq, büdcənin sosialyönümlülüyü təmin ediləcək. Ölkənin müdafiə qabiliyyətinin və təhlükəsizliyinin təmin edilməsi, xüsusi müdafiə xarakterli layihələr və tədbirlər üçün maliyyə təminatının yaradılması 2020-ci ildə də davam etdiriləcək.

Bildirilib ki, insan kapitalının inkişafı, əmək məhsuldarlığının artırılması, kompetensiyalı işçi qüvvəsinin yaradılması üzrə tədbirlər büdcə siyasətinin əsas istiqamətlərindən biri olaraq qalacaq. Bu əsasda, təhsil islahatlarının davam etdirilməsi, məktəbəqədər təhsilin maliyyə təminatı, habelə ali məktəblərə dövlət sifarişi əsasında tələbə qəbulunun daha da genişləndirilməsi məqsədilə müvafiq maliyyə təminatı ayrılacaq.

Samir Şərifov qeyd edib ki, xərc siyasətinin digər mühüm istiqaməti ərzaq təhlükəsizliyinin təmin edilməsi olacaq. Bununla əlaqədar, aqrar sektorun stimullaşdırılması, kənd təsərrüfatının aparıcı sahələrinin inkişaf etdirilməsi üçün müvafiq təşviq mexanizmləri formalaşdırılacaq, maliyyə dəstəyi və subsidiyalar ayrılacaq. 2020-ci ilin xərc siyasətinin əsas istiqamətlərindən biri səhiyyə sahəsində islahatların dəstəklənməsi olacaq. Belə ki, 2020-ci ildən başlayaraq ilk dəfə olaraq bütün ölkə ərazisində icbari tibbi sığortanın tətbiqi planlaşdırılır ki, bu məqsədlə dövlət büdcəsində əhəmiyyətli maliyyə vəsaiti nəzərdə tutulub. 2020-ci il və orta müddətli dövrdə nəqliyyat, kommunal infrastruktur, meliorasiya, sənaye və energetika kimi prioritet sahələrdə infrastruktur layihələrinin dəstəklənməsi, habelə, təhsil, səhiyyə, idman, mədəniyyət obyektlərinin, əlil və şəhid ailələri üçün evlərin tikintisi dövlət əsaslı vəsait qoyuluşunun prioritet istiqamətlərindən olacaq.

Nazir bildirib ki, 2020-ci ilin dövlət büdcəsinin gəlirləri 24 milyard 134 milyon manat, xərcləri isə 26 milyard 913 milyon manat, icmal büdcənin gəlirləri isə 27 milyard 533 milyon manat təşkil edəcək. 2020-ci il üçün icmal və dövlət büdcəsinin gəlirləri hesablanarkən neftin bir barrelinin qiyməti 55 ABŞ dollarına bərabər götürülüb.

Qeyd edilib ki, dövlət büdcəsinin gəlirlərinin tərkibində neft gəlirləri 56,1 faiz və ya 13,5 milyard manat, qeyri-neft gəlirləri 43,9 faiz və ya 10,6 milyard manat nəzərdə tutulur. Vergi orqanlarının xətti ilə dövlət büdcəsinə 7 milyard 875 milyon manat daxilolma nəzərdə tutulur ki, bu da cari illə müqayisədə 559 milyon manat və ya 7,6 faiz çoxdur. Gömrük orqanlarının xətti ilə büdcəyə 4 milyard manat, yəni 2019-cu ilə nisbətən 298 milyon manat və ya 8 faiz çox vəsaitin daxil olması proqnozlaşdırılır. Növbəti ildə Dövlət Neft Fondundan dövlət büdcəsinə 11 milyard 350 milyon manat və ya cari illə müqayisədə 14 milyon manat az transfert nəzərdə tutulur.

Maliyyə naziri bildirib ki, icmal büdcəsinin gəlirləri 27 milyard 533 milyon manat təşkil edəcək. İcmal büdcə xərclərinin yuxarı həddi 29 milyard 488 milyon manat olacaq ki, bu da 2019-cu illə müqayisədə 2 milyard 117 milyon manat və ya 7,7 faiz çoxdur. İcmal büdcənin kəsiri 1 milyard 955 milyon manat və ya proqnozla nəzərdə tutulan Ümumi Daxili Məhsulun 2,3 faizinə bərabər olacaq.

İqtisadiyyat naziri Mikayıl Cabbarov iclasda çıxış edərək vurğulayıb ki, dövlətin iqtisadi sənədi Prezident İlham Əliyevin yeni inkişaf konsepsiyasının proqnoz göstəriciləri, "Büdcə sistemi haqqında" qanuna əsasən qlobal iqtisadi çağırışlar, ölkə iqtisadiyyatının inkişaf meylləri və dövlətimizin başçısı tərəfindən müəyyən edilmiş hədəflər nəzərə alınmaqla hazırlanıb.

"Dövlətimizin başçısı dəfələrlə çıxışlarında qeyd edib ki, Azərbaycan artıq postneft dövründə yaşayır. Bu dövrdə daha dayanıqlı sosial-iqtisadi inkişafı təmin etmək üçün daha dərin islahatlar aparılmalıdır. Bu gün milli iqtisadiyyatın inkişafında neft-qaz sektoru öz lokomotiv rolunu saxlamaqda davam edir və qeyri-neft iqtisadiyyatının inkişafına dəstək göstərir", - deyə nazir vurğulayıb.

Hesablama Palatasının sədri Vüqar Gülməmmədov rəhbərlik etdiyi qurumun büdcə ilə bağlı hazırladığı rəyi təqdim edib və bildirib ki, 2020-ci il dövlət büdcəsi haqqında qanun layihəsi haqqında rəy "Hesablama Palatası haqqında", "Büdcə sistemi haqqında" qanunların tələblərinə, həmçinin digər müvafiq sənədlərə uyğun hazırlanıb. Palata sədrinin sözlərinə görə, büdcənin proqnozlaşdırılması çox çətin və mürəkkəb prosesdir. İlin əvvəlində nəzərdə tutulmayan və gözlənilməyən xərclərin icra prosesində meydana çıxması dövlət büdcəsində ehtiyat vəsaitlərin nəzərdə tutulmasını zərurətə çevirir. Eyni zamanda, 2020-ci ilin dövlət büdcəsində xərclərin həcmi 2019-cu ildəkinə nisbətən artacaq. Gələn ilin dövlət büdcəsi layihəsi yeni vahid büdcə təsnifatına əsasən tərtib edilmiş ilk büdcədir. Növbəti ildən qüvvədə olacaq təsnifat dövlət maliyyəsinin beynəlxalq metodologiyaya uyğunlaşması istiqamətində uğurlu addımlardan biridir. Hesablama Palatası tərəfindən hazırlanan rəydə büdcə layihəsinin icrası ilə bağlı rəy və tövsiyələr verilib. Palata hesab edir ki, təqdim edilən rəy, dövlət maliyyəsinin şəffaflaşmasına xidmət edir.

Sonra iclasda müzakirələr başlanıb. Deputatlardan Vahid Əhmədov, Aqiyə Naxçıvanlı, Eldar İbrahimov, Gövhər Baxşəliyeva, Qənirə Paşayeva, Musa Qasımlı büdcə layihəsi ilə bağlı fikirlərini bildiriblər.

Fasilədən sonra Milli Məclisin iclası öz işini davam etdirib. Deputatlar Fəzail Ağamalı, Tahir Rzayev, Siyavuş Novruzov, Fazil Mustafa, Rəşad Mahmudov, Əli Məsimli, Novruzəli Aslanov, Sahibə Qafarova, Elman Nəsirov, Musa Quliyev, Kamilə Əliyeva, Bəxtiyar Əliyev, Əli Hüseynli, Aytən Mustafayeva, Qüdrət Həsənquliyev, Aydın Mirzəzadə, Nəsib Məhəmməliyev, Tahir Mirkişili, Fərəc Quliyev, Cavid Osmanov, Aydın Hüseynov, Azər Badamov, Elmira Axundova, Mirkazım Kazımov çıxış edərək gələn ilin dövlət büdcəsi layihəsi ilə əlaqədar təkliflər səsləndiriblər. Milli Məclisdə büdcə müzakirələri noyabrın 13-də davam etdiriləcək.

*Rəfiqə Kamalqızı*

# Yeni Azərbaycan Partiyası Yevlax rayonunda birinci qrup Qarabağ müharibəsi əlili Tahir Həsənova fərdi ev tikəcək



Bu gün Azərbaycan Respublikasında sosial sfera, vətəndaşların həyat səviyyəsinin yüksəldilməsi dövlət siyasətinin ən mühüm istiqamətlərindən biri kimi müəyyənləşdirilib. Respublikamızda Prezident İlham Əliyev tərəfindən müəyyənləşdirilən strateji kursa uyğun olaraq dövlət siyasətində cəmiyyətdən gələn sosial sifarişlər əsas götürülür. Ötən illər ərzində Prezident İlham Əliyev bilavasitə ölkə vətəndaşlarının maraqlarının yüksək səviyyədə təmin edilməsinə, onların rifah halının yaxşılaşmasına, gəlir imkanlarının artırılmasına hesablanan çoxsaylı Fərman və sərəncamlar imzalayıb.

Hazırda Azərbaycanda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində geniş miqyaslı tədbirlər davam etdirilir. Bu prosesdə şəhid ailələri, Qarabağ müharibəsi əlilləri, qaçqın və məcburi köçkünlər xüsusi yer tutur. Adıçəkilən təbəqənin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində ardıcıl olaraq tədbirlər davam etdirilir. Bu tədbirlərdən biri də həmin insanların mənzillə təmin edilməsidir. Ötən illər ərzində dövlət tərəfindən minlərlə mənzil tikilərək şəhid ailələrinə, Qarabağ müharibəsi əlillərinə, qaçqın və məcburi köçkünlərə verilib.

Ölkəmizin aparıcı siyasi təşkilatı olan Yeni Azərbaycan Partiyası da öz fəaliyyətində müxtəlif tipli sosial layihələrin həyata keçirilməsini daim diqqət mərkəzində saxlayır.

Hazırda partiya bu istiqamətdə tədbirləri davam etdirir. Bunlardan biri də Yevlax rayonu Yuxarı Qarxun kənd sakini,birinci qrup Qarabağ Müharibəsi əlili, ehtiyatda olan polis polkovnik-leytenantı, 1947-ci il təvəllüdlü Həsənov Tahir Hüseyn oğlu üçün fərdi evin tikilməsidir.

Məlumat üçün bildirək ki, Həsənov Tahir Hüseyn oğlu 20.11.1968-ci ildən 02.01.1970-ci il tarixədək keçmiş Sovet ordusu sıralarında siravi əsgər kimi, 02.01.1970-ci ildən 15.06.1992-ci il tarixədək zabit kimi, 15.06.1992-ci ildən19.04.1999-cu il tarixədək isə Azərbaycan Respublikası Silahlı Qüvvələrində zabit kimi hərbi xidmət keçib.

O, 1979-1981-ci illərdə keçmiş Sovet ordusu sıralarında zabit kimi Əfqanıstanda xidmət etmişdir. 1992-ci ildə Qarabağ uğrunda gedən döyüşlərdə yaralanmış və nəticədə sol əl barmaqlarını və sol ayağını itirmişdir.

T.Həsənov 2000-ci ildən 2005-ci ilədək Bakı şəhəri Nəsimi rayon İcra Hakimiyyətində Qarabağ əlilləri və Şəhid ailələrinin mənzil növbəliliyinə alınmış, 2005-ci ildə növbəliliyi Binəqədi rayonuna keçirilmişdir. 2013-cü ildə isə sağlamlığının məhdudlaşması və ailə vəziyyəti ilə bağlı daimi qeydiyyat yeri olan Yevlax rayonu Yuxarı Qarxun kəndində məskunlaşmışdır.

13.09.2013-cü il tarixində Yevlax şəhər İcra Hakimiyyətinə ərizə ilə müraciət edərək mənzillə və ya fərdi yaşayış evi ilə təmin olunmaq üçün Yevlax rayonu üzrə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil növbəliliyinə alınmasını xahiş etmişdir. Həsənov Tahir Hüseyn oğlunun ərizəsi nəzərə alınaraq o, həmin vaxtdan qanunamüvafiq olaraq Yevlax rayonu üzrə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil növbəliliyində 119-cu sırada qeydiyyata alınmışdır.Yevlax rayonu üzrə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin 01.03.2014-cü il tarixə dürüstləşdirilmiş mənzil növbəliliyi siyahısı Yevlax şəhər İcra Hakimiyyətinin 06.03.2014-cü il tarixli 208 nömrəli qeydiyyat məktubu ilə, Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə təqdim olunmuşdur.

Ötən dövr ərzində fərdi yaşayış evləri və ya ictimai mənzillərlə təmin olunmuş Qarabağ müharibəsi əlilləri, şəhid ailələri və digər üzürlü səbəblərdən mənzil növbəliliyindən çıxarılmış şəxslərdən sonra hazırda Həsənov Tahir Hüseyn oğlu Yevlax rayonu üzrə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil növbəliliyində 73-cü sıraya yerləşdirilmişdir. Həsənov Tahir Hüseyn oğlunun mövcud sosial durumu nəzərə alınaraq ona fərdi evin tikilməsini Yeni Azərbaycan Partiyası öz üzərinə götürmüşdür. Artıq fərdi evin tikintisi üçün Yevlax rayonunda müvafiq ərazi ayrılmışdır.

# Musa Quliyev: "2020-ci ilin dövlət büdcəsi investisiya tutumlu və sosialyönümlüdür"



"2020-ci ilin dövlət büdcəsi investisiya tutumlu sosial büdcədir. Büdcə həm iqtisadi inkişafımızın daha da yüksəlməsinə həm də əhalinin sosial rifah halının daha da yaxşılaşmasına xidmət edəcək". SİA-nın xəbərinə görə, bunu Milli Məclisin Əmək və Sosial siyasət komitəsinin üzvü Musa Quliyev parlamentin dünən keçirilən plenar iclasında büdcə müzakirələri zamanı deyib. O bildirib ki, 2020-ci ilin dövlət büdcəsinin xərclərinin 40 faizə yaxını sosial sahəyə həsr edilib. 2019-cu ilin sosial müdafiə sahəsində xüsusi il olduğunu deyən deputat söyləyib ki, cari ildə ölkə başçısı tərəfindən bu istiqamətdə imzalanan 30-a yaxın fərman və sərəncamlar, iki mühüm sosial paket sayəsində minlərlə insanın rifah halı daha da yaxşılaşıb.

# Gələn ay Kiyevdə GUAM biznes forumu keçiriləcək



Dekabrın 12-də Kiyevdə II GUAM biznes forumu keçiriləcək. Azərbaycanda İxracın və İnvestisiyaların Təşviqi Fondundan (AZPROMO) bildirilib ki, tədbir GUAM üzvü olan ölkələrin hökumət başçılarının görüşü çərçivəsində təşkil olunacaq. Azərbaycanda fəaliyyət göstərən işgüzar dairələr tədbirdə iştiraka dəvət olunurlar. Biznes forumda iştirak etməkdə maraqlı olanlar AZPROMO-ya müraciət edə bilərlər.

# Siyavuş Novruzov: "Xalq onları dəstəkləmir, bunların kimlərə xidmət etdiyini yaxşı bilir"



"Müsavat Partiyasının Bakı Şəhər İcra Hakimiyyəti qarşısında qanunsuz aksiya keçirməyə cəhd etməsinin məqsədi ölkədə ictimai-siyasi sabitliyi pozmaq, xarici dairələrin tapşırıqlarını yerinə yetirməkdir". SİA-nın verdiyi məlumata görə, bunu Yeni Azərbaycan Partiyasının İcra katibinin müavini, Milli Məclisin deputatı Siyavuş Novruzov deyib. Deputat qeyd edib ki, qanunsuz aksiyalar keçirməklə radikal müxalifət xarici qüvvələrin təsir mexanizmini yaratmağa çalışır: "İndiki vaxtda mitinq nəyə lazımdır? Milli Məclisdə dövlət büdcəsi müzakirə olunur. Nə təklifin varsa, yaz göndər. Qarşıdan bələdiyyə seçkiləri gəlir. Belə bir vaxta gərəksiz yerə qanunsuz aksiya keçirmək, Bakı Şəhəri İcra Hakimiyyəti qarşısında ictimai asayişi pozmağın nəyə xidmət etdiyi bəllidir. Orada cəmi 30 nəfər yığışıb. Xalq da onları dəstəkləmir, bunların kimlərə xidmət etdiyini yaxşı bilir".

S.Novruzov bildirib ki, radikal müxalifət bir-birini təkrar edir: "Çalışırlar göstərsinlər ki, guya bunlar böyük müxalifətdir. Qanuna, qanunun aliliyinə hörmət etmək əvəzinə bunların göstəriciləri qanunu pozmaq, polisə müqavimət göstərmək, ictimai-siyasi sabitliyi pozmağa cəhd etmək, digər vətəndaşların hüquqlarını pozmaq və s. bu kimi əməllər törətməkdir. Yəni hər hansı bir təklif verməkl, alternativ layihələrlə çıxış etmək əvəzinə bu cür əməllər törədirlər, öz fəaliyyətlərini qeyri-qanuni əməllər ilə ölçürlər.

Mən xatırlayıram, vaxtilə AXCP-Müsavat cütlüyü hakimiyyətdə olanda həmin vaxt belə qayda var idi ki, kim daha çox meydanda qışqırıbsa, icra başçısı o, olmalıdır. Yəni bunlar təcrübəyə, savada, təhsilə, biliyə və digər məsələlərə əsaslanmırdı, bunların ki ancaq qışqırmaq idi. 30 il keçməsinə baxmayaraq hələ də dəyişməyiblər. Düşüncə tərzləri belədir ki, mən nə qədər qanunu pozuramsa, nə qədər söyüş söyürəmsə, ictimai asayişi pozuramsa, vətəndaşlara qarşı nə qədər hörmətsizlik edirəmsə, deməli mən bir o qədər daha çox müxalifət hesab olunuram. Halbuki, seçkilərdə iştirak etmək, namizədlərin sayı ilə ortaya çıxmaq müxakifət üçün tamamilə kənarda qalıb. Çünki onların sosial bazası, elektoratı yoxdur.

Əhalinin gur olduğu yerlərdə qanunsuz aksiya keçirməyə cəhd göstərirlər ki, oradakı insanları da öz elektoratı kimi təqdim etsinlər".

***Ceyhun Rasimoğlu***

# Mübariz Qurbanlı "France 2" telekanalına müsahibə verib



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin (DQİDK) sədri Mübariz Qurbanlı noyabrın 12-də Heydər Əliyev Fondunun dəvəti ilə ölkəmizdə səfərdə olan "France 2" telekanalının "İslam Azərbaycanda" verilişinin çəkiliş qrupunun üzvlərinə müsahibə verib. SİA-nın verdiyi məlumata görə, DQİDK sədri müsahibəsində Komitənin fəaliyyət istiqamətlərinə toxunub, dövlət-din münasibətləri modeli, dini durum haqqında ətraflı məlumat verib, 35-i qeyri-islam olmaqla 942 dini icmanın dövlət qeydiyyatına alındığını bildirib. O qeyd edib ki, Azərbaycan dünyəvi dövlət olmasına baxmayaraq, dini konfessiyalar hər zaman dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Mübariz Qurbanlı eyni zamanda, Azərbaycanda mövcud olan multikulturalizm ənənələri, dinlərarası tolerantlıq və harmoniya haqqında ətraflı məlumat verib. Bildirib ki, Azərbaycan tarixən müxtəlif mədəniyyətlərin, sivilizasiyaların, dinlərin qovuşduğu məkan olub və burada ölkəmizin coğrafi mövqeyi, əhalisinin polietnikliyi kimi amillər böyük rol oynayıb. Tarixin ayrı-ayrı dönəmlərində ölkəmizdə Bütpərəstlik, Zərdüştiliklə bərabər, Yəhudilik, Xristianlıq və İslam kimi səmavi dinlərin nümayəndələri bir-birinə təsir göstərmədən, birgə yanaşı yaşayıblar. Eyni zamanda, Azərbaycan ərazisi bütün dövrlərdə dini ayrı-seçkilikdən əziyyət çəkən insanlar üçün sığınacaq rolunu oynayıb.

Azərbaycan əhalisinin 96 faizinin müsəlmanlar olduğunu qeyd edən Komitə sədri dövlət-din münasibətləri, Konstitusiyada təsbit edilmiş vicdan azadlığı, ölkəmizdə hökm sürən tolerantlıq mühiti, ayrı-ayrı dinlər və konfessiyalar arasında qarşılıqlı hörmət və etimada əsaslanan əməkdaşlıq münasibətləri haqqında danışıb.

M.Qurbanlı vurğulayıb ki, bu gün Prezident İlham Əliyevin məqsədyönlü fəaliyyəti sayəsində ölkəmiz tolerantlıq, multikulturalizm və dini maarifləndirmə ilə bağlı regional və beynəlxalq konfransların, yüksək səviyyəli forumların keçirildiyi əsas məkana çevrilib. Azərbaycanda dövlət-din münasibətlərinin tənzimlənməsi sahəsində həyata keçirilən siyasət dünya ictimaiyyəti tərəfindən də diqqətlə izlənilir və yüksək qiymətləndirilir.

"France 2" telekanalının çəkiliş qrupunun üzvü Boualem Guerıtlı müsahibəyə görə Dövlət Komitəsinin sədrinə təşəkkürünü bildirərək ölkəmizə səfərlərinin məqsədindən danışıb. O qeyd edib ki, səfərdə olacaqları 10-29 noyabr tarixləri arasında Azərbaycanda mövcud olan dini konfessiya rəhbərləri ilə görüşlər keçirəcək, noyabrın 14-15-i tarixlərində Bakıda baş tutacaq Dünya dini liderlərinin II Bakı Sammitində, müxtəlif məscid, kilsə və sinaqoqlarda çəkiliş aparacaqlar.

Boualem Guerıtlı "İslam Azərbaycanda" verilişinin çəkilməsində məqsədin Azərbaycanda mövcud olan nümunəvi dövlət-din münasibətlərini, birgəyaşayış, multikulturalizm və tolerantlıq ənənələrini dünyaya nümayiş etdirmək olduğunu vurğulayıb. Sonda qonaqlara DQİDK-nın ölkəmizdəki dini tolerantlıq mühiti və maddi-mədəni irsimizə qarşı törədilən erməni vandalizmi haqqında nəşr etdirdiyi kitablar təqdim edilib.

***Ceyhun Rasimoğlu***

# Dövlət Bayrağı Günü ölkəmiz üçün ən tarixi günlərdən biridir

*Milli Məclisin deputatı Fəzail İbrahimlinin yap.org.az-a müsahibəsi*

***- Fəzail müəllim, məlum olduğu kimi 9 noyabr tarixi Azərbaycanda Dövlət Bayrağı Günü kimi qeyd olunur. Hər bir dövlətin müstəqilliyi və suverenliyi onun dövlət rəmzlərində ifadə olunur. Bu mənada, hər bir xalq, dövlət üçün bayraq hansı məna kəsb edir?***

- Dövlətimizin üçrəngli bayrağı Azərbaycan suverenliyinin və müstəqilliyinin rəmzidir. Bayraq tarixən hər bir xalq üçün müqəddəs olub. İnsanlar öz dövlətlərinin bayraqlarına həmişə ehtiramla yanaşıblar. Ona görə də, bayraq insanlar, xalqlar üçün həmişə müqəddəs hesab edilib. Bu mənada ölkəmizdə Dövlət Bayrağı Gününün qeyd olunması həm dövlətimiz, həm də xalqımız üçün olduqca əlamətdar bir hadisədir, eyni zamanda keçib gəldiyimiz yola, tarixə qısa bir nəzər salmaq imkanıdır. Bayraq bizim müstəqilliyimizi dərk etməyimiz, onun qədrini - qiymətini bilməyimiz baxımından tapındığımız, kölgəsinə sığındığımız müqəddəs bir varlıqdır.

Müstəqil Azərbaycanın ilk müstəqil bayrağı bildiyiniz kimi 1918 - ci ildə Gəncə şəhərində qəbul olunub. O zaman Şərqdə ilk demokratik respublika olan müstəqil Azərbaycanın Nazirlər Şurası Bakı şəhəri daşnak - bolşevik qüvvələri tərəfindən işğal olunduğuna görə Gəncə şəhərində yerləşirdi. İlk bayraq kimi 24 iyun 1918 - ci il tarixində qırmızı rəngli ay və səkkizguşəli ulduzdan ibarət bayraq qəbul olunmuşdu və qeyd edilmişdi ki, bu bayraq müvəqqətidir. Daha sonra 9 noyabr 1918 - ci il tarixində müqəddəs üçrəngli bayrağımız qəbul olundu və dalğalanmağa başladı. Təbii ki, bu məqamda üçrəngli bayrağımızın ideologiyasının yaradıcısı Əli bəy Hüseynzadəni xatırlamaq lazımdır. Əli bəy Hüseynzadənin türkçülük, müasirlik, islamlaşmaq ideyaları üçrəngli bayrağımızda öz əksini tapıb. Bu bayraq həm də, Azərbaycan dövlətinin öz inanclarına, öz dəyərlərinə sadiqliyindən xəbər verirdi. Amma təəssüflər olsun ki, Azərbaycan Xalq Cümhuriyyətinin ömrü uzun olmadı, bu bayrağımız zirvələrdə dalğalanmadı.



Amma görünür, Tanrının lütfü bizdən ötrü imiş ki, üzərindən uzun illər keçəndən sonra Azərbaycan yenidən öz müstəqilliyinə qovuşdu, yenidən üçrəngli bayrağımız dalğalanmağa başladı. Biz yenidən bayrağımızla fəxr etmək, onunla qürur duymaq imkanı əldə etdik.

Belə ki, 17 noyabr 1990 - cı il tarixində Ümummilli lider Heydər Əliyevin təklifi ilə üçrəngli bayrağımız Naxçıvan Ali Məclisinin qərarı ilə Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul olundu. Daha sonra üçrəngli bayraq bütövlükdə Azərbaycanın dövlət bayrağı kimi qəbul olundu.

***- Sizcə, 9 noyabrın təqvimə Dövlət Bayrağı Günü kimi daxil edilməsinin siyasi əhəmiyyəti nədən ibarətdir?***

- Bilirsiniz ki, 2009-cu il noyabrın 17-də Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının Dövlət Bayrağı Gününün təsis edilməsi haqqında" Sərəncam imzalayıb. Həmin il dekabrın 4-də isə Milli Məclis noyabrın 9-nu Dövlət Bayrağı Günü kimi rəsmiləşdirib. Həmin gün Əmək Məcəlləsinin 105-ci maddəsinə edilən əlavəyə əsasən, bu bayram qeyri-iş günü olan bayramların siyahısına daxil edilib. Həmin gün kimliyindən, düşüncəsindən, iqtisadi - sosial səviyyəsindən asılı olmayaraq, bütün vətəndaşlar bir anlığına düşünəcəklər ki, bu istirahət hüququnu mənə nə verib? Bu kimi suallarıözünə verdikdən sonra o, öz ailə üzvlərinə, ətrafına, yaxınlarına üçrəngli bayrağımız haqqında məlumat verəcək.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2007-ci il noyabrın 17-də Bakıda Dövlət Bayrağı Meydanının yaradılması barədə Sərəncam imzalayıb. Onu da qeyd edim ki, Dövlət Bayrağı Meydanı hər dövlətdə yoxdur. Dövlət Bayrağı Meydanının yaradılmasının özü bayrağa xüsusi bir münasibətin ifadəsidir. Yəni, meydanda insanlar gəzir, öz asudə vaxtlarını keçirir, qonaqlar gələndə həmin meydanı ziyarət edirlər və bu da insanların yaddaşına bayrağın əbədi həkk olunmasına, insanlara milli dövlətçilik şüurunun aşılanmasına xüsusi stimul verir. Yəni, ölkə paytaxtında olan, yaşayan, qonaq gələn hər kəsdə bu Meydan haqqında dolğun təəssüratlar yaranacaq. Bayraq Meydanının yaradılması haqqında verilən qərar Azərbaycan dövlətçilik tarixində verilən ən önəmli qərarlardan biridir. Biz bu Dövlət Bayrağı Meydanı vasitəsi ilə dünyaya "Biz varıq!" mesajını verdik. Artıq imzamızın millətlərin imzaları içində olmasını sübut etdik.

Təbii ki, müstəqilliyimiz asanlıqla əldə olunmayıb. Bu bayrağın dalğalanması üçün nə qədər qanlar tökülüb, nə qədər insanlar şəhid olub. Dünya ictimaiyyəti də xalqımızın öz bayrağına, öz atributlarına bu qədər sayğılı olduğunu görür. Ulu Öndər Heydər Əliyevin bəyan etdiyi kimi Azərbaycan müstəqilliyi əbədidir, daimidir, dönməzdir və üçrəngli bayrağımız da daim zirvələrdə dalğalanacaq. Bu baxımdan, mən düşünürəm ki, Dövlət Bayrağı Günü ölkəmiz üçün ən tarixi günlərdən biridir. Bu münasibətlə mən bütün xalqımızı təbrik edirəm. Qeyd etmək istəyirəm ki, Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan bu bayraq bizim azadlıq məfkurəmizə, milli-mənəvi dəyərlərə və ümumbəşəri ideallara sadiqliyimizi nümayiş etdirir. Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra Azərbaycanın Dövlət bayrağı milli müstəqilliyimizin simvolu kimi ölkəmizin bütün vətəndaşları üçün müqəddəs dövlətçilik rəmzlərindən birinə çevrilib. Bizim də borcumuzdur ki, bu bayrağın əbədi dalğalanması üçün əlimizdən gələni edək, Vətənin müstəqilliyinin əbədi olması üçün çalışaq.

***- Dövlət atributlarının bərpası, o cümlədən müstəqillik illərində Azərbaycan dövləti tərəfindən bu atributlara göstərilən hörmət və ehtiram barədə fikirlərinizi bilmək istərdik...***

- Əvvəla onu deyim ki, Azərbaycan 70 ilə yaxın bir dövrdə SSRİ-nin tərkibində olsa da, xalqımız müəyyən bir yol keçdi. İmperiyanın çöküşü ərəfəsində vəziyyət dəyişdi. Qeyd etdiyim kimi 1990-cı il noyabr ayının 17-də isə Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Ulu Öndər Heydər Əliyevin Sədrliyi ilə keçirilən sessiyasında Azərbaycan Xalq Cümhuriyyətinin bayrağı ilk dəfə olaraq salona gətirildi və Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı elan olundu. 1991-ci ildə Ali Sovet "Dövlət bayrağı haqqında" qanun qəbul etdi və üçrəngli bayrağımıza Azərbaycan Respublikasının Dövlət bayrağı statusunu verdi. 1991-ci il fevralın 5-də Azərbaycan Respublikası Ali Soveti Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsadətinə baxaraq bayrağın Azərbaycan Respublikasının Dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərar çıxardı. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etdi. Ulu Öndər Heydər Əliyev 1998-ci il 13 mart tarixində "Azərbaycan Respublikasının dövlət atributlarının təbliği işinin gücləndirilməsi haqqında" Sərəncam imzaladı. Bu Sərəncam çox böyük əhəmiyyətə malik idi. Hər şeydən əvvəl, bu Sərəncamın dövlət atributlarının təbliği baxımından əhəmiyyətini xüsusi qeyd etmək lazımdır.

Bu ənənə hazırda Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu gün Azərbaycan dövləti tərəfindən dövlət atributlarına yüksək hörmət və ehtiram göstərilməkdədir. Eyni zamanda, azərbaycan cəmiyyəti müstəqilliyimizin rəmzi olan üçrəngli bayrağına hər zaman böyük ehtiramla yanaşır.

***- Bu gün Azərbaycan dünyada nüfuzlu dövlətdir və üçrəngli bayrağımız mötəbər beynəlxalq təşkilatların qarşısında əzəmətlə dalğalanır. Bu barədə nə deyə bilərsiniz?***

- Əlbəttə ki, bu fakt bizim üçün sonsuz iftixar mənbəyidir. Təkcə dövlət tədbirlərində deyil, mötəbər idman yarışlarında da, humanitar, mədəni tədbirlərdə də Dövlət bayrağımız zirvələrə yüksəldilir, himnimiz səslənir. Avropa Şurasında 47 ölkənin bayrağı dalğalanır. Bir nüansı diqqətinizə çatdırım. Məhəmməd Hadi "Yox millətimin imzası imzalar içində" deyib fəryad edərək dünyasını dəyişdi. Mən bunu xatırlayaraq Avropa Şurasında bayrağımız altında durdum və qürur hissi ilə Hadiyə xitabən "ruhun şad olsun" dedim. Sevindirici haldır ki, bu gün Azərbaycan bayrağı BMT-də, Avropa Şurasında dalğalanır və hər bir vətəndaşımız iftixarla deyə bilər ki, var millətimin imzası imzalar içində. Qoy bu iftixarımız əbədi olsun! İnanıram ki, belə də olacaq və Azərbaycanın torpaqları işğaldan azad olunacaq və üçrəngli bayrağımız doğma Qarabağımızda dalğalanacaq!

# Ünvansız müxalifətin piket cəhdi

Oturub bir anlığa müxalifət düşərgəsinin keçdiyi uğursuz və biabırçı yola nəzər yetirdikdə, özözümə fikirləşirəm, üzü padoş buna deyirlər. Qınamayın məni, təhqir etmirəm. Sözümün canı var. Bəlli olan reallıq budur ki, bu, o dağıdıcı müxalifətdir ki, yarandığı gündən etibarən mövcud iqtidarla baş-başa gəlməyi bacarmayıb. Yəni nə ağıl, nə siyasi resurs, nə də səmimiyyət mövzusunda. Bu günə qədər müxalifət adına sıralanan bütün biabırçı və rüsvayçı məğlubiyyətlərin də səbəbi, məhz budur. Durum dünən də dəyişməyib, bu gün də, sabah da dəyişməyəcək. Dağıdıcı müxalifətin eyniadlı estafeti bu gün də davam etməkdədir. Özü də ünvansız bir yol boyunca. Bu gün bu başıpozuq satqın dağıdıcı düşərgə "liderləri" çətinə düşəndə də, başlayırlar hansısa əndrəbadi bir qurum yaratmağa və həmin ölü qurumda başgirləməyə. Bundan da bir şey əldə etmədikdə başlayırlar mitinq və ya piket keçirməyə. Adını da qoyurlar "insan haqları pozulur".

Onlara tutarlı və alternativi olmayan cavabı ölkə Prezidenti İlham Əliyev İlqar Abbasovu Şirvan şəhər, Mərdan Camalovu Zərdab, Əziz Əzizovu Bakının Suraxanı, Elşad Həsənovu Yasamal, Rafiq Quliyevi Xətai rayonlarının icra hakimiyyətlərinin başçıları vəzifələrinə təyin olunmaları ilə bağlı qəbul edərkən deyib: "Xüsusilə, özünü müxalifət adlandıran antimilli və tamamilə rəzil olmuş qorxaq dəstə bu işlərdə ön sıralardadır.



Çünki onların əlindən heç nə gəlmir. Onların işi ancaq qarayaxma kampaniyaları aparmaq və bizim işimizə maneçilik törətməyə cəhd göstərməkdir. Ancaq tarix və həqiqət onu göstərir ki, ayağımıza dolaşmaq istəyən bu antimilli qorxaq dəstə bizim işimizə zərrə qədər ziyan vura bilməz. İndi onlar ancaq sosial şəbəkələrdən, bəzi internet resurslarından istifadə edərək, dövlət məmurlarına qarşı qarayaxma kampaniyası aparırlar".

Dövlət başçısının dediyi kimi, "Ancaq tarix və həqiqət onu göstərir ki, ayağımıza dolaşmaq istəyən bu antimilli qorxaq dəstə bizim işimizə zərrə qədər ziyan vura bilməz".

Elə bu səbəbədəndir ki, sosial şəbəkələrdə müxalif qaragüruh qarayaxmalar edirlər. Çünki xalq onları 2003-cü ildən tarixin zibilliyinə atıb. Ancaq təəssüf doğuran odur ki, bu əl-ayağa dolaşan zəlilər başa düşürlər ki, gün keçdikcə, onların siyasi karyeralarının perspektivləri daha da acınacaqlı olur.

Dünən Müsavat partiyasının Bakı Şəhər İcra Hakmiyyəti qarşısında qanunsuz aksiya keçirməyə cəhd etməsi və bu aksiyaya xalqın dəstək olmaması bir daha deyilənlərin real sübutudur. Çünki xalq bu dacıdıcıların kimiliyini və məqsədlərini AXC-Müsavat cütlüyünqün birillik hakimiyyəti dövründə gördü. Və bu gün də onların məqsədinin ölkədə ictimai-siyasi sabitliyi pozmaq, xarici dairələrin tapşırıqlarını yerinə yetirmək olduğunu bilir.

Qeyd edək ki, qanundan başları çıxmayan radikal müxalifət bilməlidir ki, Azərbaycan Respublikasının "Sərbəst toplaşmaq azadlığı haqqında" qanununun 8-ci maddəsində göstərildiyi kimi, "ayrı-seçkiliyə, ədavətə və ya zorakılığa çağırışlarla müşayiət olunan, milli, irqi və ya dini ədavəti təbliğ edən toplantılar qadağan edilir". Bu səbəbdən də, ölkədə ictimai asayişi təmin edən polislər məcburən bu cür piketlərin və mitinqlərin qarşısını alır. Məhz belə bir vəziyyətdə mitinq keçirmək üçün yerin olmadığını bəhanə edən müxalifətə meydan da verilir. "Sərbəst toplaşmaq azadlığı haqqında" qanunun 9-cu maddəsinə uyğun olaraq, - "yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün hər bir şəhər və rayonda müvafiq icra hakimiyyəti orqanı xüsusi yerlər ayırmalıdır. Yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün təklif olunan yerlərin siyahısı yerli mətbuatda dərc edilir və başqa üsullarla əhaliyə çatdırılır. Təşkilatçılar yığıncaq, mitinq və ya nümayiş üçün təklif olunan yerlərin birini seçə bilərlər. Müvafiq icra hakimiyyəti orqanı yığıncaqların, mitinqlərin və nümayişlərin keçirilməsi üçün təklif olunmuş yerlərin siyahısını müraciətlər əsasında dəyişdirə bilər". Lakin müxalifət onlara təyin olunan ərazidə yerləşən meydanı doldura bilmədiyini bilərək, belə piketlərə əl atır.

Bu zəlillərin məqsəd və amalları ölkədə siyasi sabitliyi pozmaqdır. Ancaq 25 illik məğlubiyyət immuniteti olan bu bədbəxtlər istəklərinə çata biləcəklərmi? Bax, bunu zaman göstərəcək. Ancaq bu zəlilər başa düşmürlər ki, Azərbaycan cəmiyyətinin belə perspektivsiz, mənasız və məzmunsuz mitinqlərə, piketlərə heç bir ehtiyacı yoxdur. Bələləri bilməlidirlər ki, Vətənin halal çörəyinə kəm baxıb, özgənin, həm də düşmənin) yalı ilə bəslənənləri tarix heç vaxt bağışlamır. Çünki sizin kimi satqınların qatarı çoxdan gedib... Və keçirəcəyiniz o mitinq-şoularınızda meymunluq eləməyiniz özünüzə qalacaq.

**Rəfiqə HÜSEYNOVA**

# Ay-ulduzlu Azərbaycan bayrağı qürur mənbəyimizdir

*Qədim tarixdə bayraqlar siqnallaşma üçün istifadə edilmişdir*

***Aparılan araşdırmalara görə müasir dövrdə dünyada beş min xalq mövcuddur ki, onlardan yalnız dünya dövlətləri tərəfindən rəsmi olaraq tanınmış və qəbul olunmuş təqribən iki yüzünün dövləti və onun əsas atributlarından olan bayrağı vardır. Bundan başqa müxtəlif səbəblərdən heç bir ölkə tərəfindən tanınmamış 13 toplumların və yaxud xalqların bayrağı da mövcuddur ki, onları da əsasən özlərinin öz ərazilərində təşkil etdikləri tədbirlərdə, bəzən də digər hər hansı bir kicik toplantılarda görmək olur. Göründüyü kimi heç də öz dövlətini qurmaq və bayrağını yaratmaq eləcə də onu qoruyub saxlamaq hər xalqa nəsib olmur. Tarixə nəzər saldıqda görürük ki, Bayraqlar ilk illərdə yalnız siqnallaşma üçün istifadə edilmişdir. Ölkələrin özlərinə bayraq təyin etməsi isə, Orta əsrlərin əvvəllərində döyüşlərdə tərəflərin bir-birlərini ayırd edə bilmələri üçün ortaya çıxmışdır.***

Bayraq bir ölkəni, təşkilatı, quruluşu və ya birliyi işarələyən, əsasən dördbucaqlı şəklində olan lövhə və ya parça. Bayraqları öyrənən elm sahəsi veksillologiya adlanır.

Hər bir dövlətin əsas atributu sayılan bayraq müqəddəs anlam daşıyaraq, xalqın mənəvi-siyasi və mədəni birliyinin simvoludur. Bayraq eyni zamanda azadlıq və istiqlal rəmzi olaraq, xalqın məxsus olduğu dövlətin müstəqilliyini ifadə edir. "Bayraq" sözü ümumtürk mənşəlidir və qədim tarixə malikdir. Böyük mütəfəkkir Mahmud Kaşğarinin məşhur "Divanü lüğat-it-türk" (XI əsr) əsərində müasir dilimizdəki "bayrak/batrak" sözü qeydə alınmışdır. Eyni zamanda, tədqiqatçıların fikrincə, həmin söz "batırak/batrak/bayrak" semantik-struktur təkamül modeli əsasında "batır"-(batırmaq, sancmaq) feitindən törəmişdir. Müasir türk dilində "bayraq" sözü ilə yanaşı "sancaq" sözü də işlədilir. Qeyd etmək lazımdır ki, qədim türk tayfalarında bayraq müxtəlif adlarla (sancaq, tuğ, ələm) tanınır və müqəddəs anlam daşıyırdı. Bu da onların dini inancları ilə bağlı idi. Belə ki, Göytürk dövlətində qurd başlı tuğlardan istifadə olunurdu. Bundan əlavə, "tuğ", "sancaq", "ələm" anlayışlarına "Kitabi-Dədə Qorqud" dastanında da rast gəlinir.

## BAYRAQ (SANCAQ, TUĞ, ƏLƏM) OĞUZ TAYFALARINDA MÜQƏDDƏS RƏMZ SAYILARAQ DÖYÜŞÇÜLƏR TƏRƏFİNDƏN ÖNDƏ DAŞINIRDI

Bayraq (tuğ, sancaq, ələm) Oğuz tayfalarında müqəddəs rəmz sayılaraq, döyüşçülər tərəfindən öndə daşınırdı. Bəşər tarixində bayraqların ilkin formaları uzun dirəklər üzərində müxtəlif bəzək ünsürlərindən və sakral elementlərdən tərtib olunan xüsusi tanınma-fərqləndirmə nişanlarından ibarət olmuşdur. Onlara müasir elmi dövriyyədə ümumiləşdirilmiş şəkildə "veksilloidlər" deyilir. Bu nişanlar hələ qədim dövrlərdə qəbilə, tayfa və ya tayfa birlikləri başçılarının hakimiyyət rəmzi olmaqla, hərbi əhəmiyyət də daşımışdır.Döyüş zamanı bu tipli bayraqlar müqəddəs hesab edilir, onun düşmən əlinə keçməsi məğlubiyyətin başlıca əlaməti sayılırdı. Qeyd etmək lazımdır ki, qədim veksilloidlərin təsvirləri Misirdə aşkar edilmişdir. Belə ki, Misirin Qahirə muzeyində saxlanılan, təxminən e.ə. 3200-cü ilə aid daş kitabədə Misir fironu Narmerin qarşısında dörd döyüşçünün Misir əyalətlərinin hərbi simvollarını daşıması təsvir edilmişdir. Beləliklə, Misirdə ilk sülalələr dövründən hökmdarı bayraqla (veksilloidlə) müşayiət etmək ənənəsi olmuşdur, ilk ipək bayraq qədim Çin dövləti ilə əlaqələndirilir. Çjou sülaləsinin əsasını qoyan imperator Çjou e.ə. XII əsrdə onun saraya gəlişini xəbər verən ağ bayrağın öndə aparılması barədə əmr vermişdi. Beləcə, tarixdə müasir bayraqların ilk prototipləri qaldırılmışdı.

## YÜNGÜL, DAVAMLI İPƏK PARÇALAR BAYRAQLARIN HAZIRLANMASI ÜÇÜN İDEAL SAYILIRDI



Yüngül, davamlı ipək parçalar bayraqların hazırlanması üçün ideal sayılırdı, ipək bayraq uzaq məsafədən daha aydın görünürdü. Bayraqların parçadan hazırlanması ənənəsi Çindən sonra Monqolustan, Hindistan, iran, Roma, daha sonra isə bütün dünyaya yayılmışdır. Qədim Roma ordusunda bayrağı (veksillum) bayraqdar Roma imperiyasında hərbi süvari qoşunlarına verilən bayraqlar "veksillum" adlanırdı. Veksillum Qərbi Avropada müasir bayraqlara bənzəyən ilk bayraq sayılırdı. Bu bayraqların parça hissəsi tünd qırmızı rəngdə, dördkünc formada idi və dirəyin yuxarı hissəsindən üzü aşağı vertikal şəkildə bərkidilirdi. Qeyd etmək lazımdır ki, "veksillum" sözündən XX əsrin ortalarında "veksillologiya" (bayraqları öyrənən elm) termini yaranmışdır. Orta əsrlərdə Avropada ordunun bölmə və hissələrinin fərqləndirici bayraqlarına "ştandart" deyilirdi. Bundan əlavə, ştandart həm də hakimiyyətin, dövlət rəhbərinin atributu sayılırdı. Hazırda bu ənənə qalmaqdadır və bir sıra dövlətlərin başçılarının qanunla müəyyən edilmiş qaydada ştandartları vardır.

## AZƏRBAYCANDA ŞTANDART (SANCAQ) FORMALI BAYRAQLARIN HƏLƏ TUNC DÖVRÜNDƏ (E.Ə. IV-II MİNİLLİKLƏR) İSTİFADƏ EDİLMƏSİ MƏLUMDUR

Azərbaycan dövlətçiliyinin əsas rəmzlərindən biri sayılan bayrağımızın tarixi dərin köklərə malikdir. Azərbaycan ərazisində ilk bayraqların yaranma tarixi ilə tanış olduqda görürük ki, onların meydana gəlməsi bizim eradan əvvəlki dövrləri əhatə edir. Azərbaycanda arxeoloji tapıntılara əsasən, ştandart (sancaq) formalı bayraqların hələ Tunc dövründə (e.ə. IV-II minilliklər) istifadə edilməsi məlumdur. Arxeoloji qazıntılar zamanı Şəmkir və Şəki rayonlarında tapılmış buynuzlu maral, üzərində səkkizguşəli ulduz, şüalanan günəş və müxtəlif həndəsi naxışlar olan dairəvi lövhə və başqa formalı tunc ştandart başlıqları bu gün muzey kolleksiyalarını bəzəyir. Qeyd edək ki, Azərbaycanda aşkar edilmiş əksəriyyəti taxta sapa taxılmış, buynuzlu heyvan fiqurlu ştandartlara Manna qalalarının təsvir edildiyi, e.ə. VIII-VII əsrlərə aid Assuriya divar rəsmlərində rast gəlmək olar. Tunc dövrünə aid hakimiyyət rəmzi (e.ə. XV-XIV əsrlər) Milli Azərbaycan Tarixi Muzeyi Manna qalaları üzərində buynuzlu heyvan təsvirli rəmzlər (e.ə. VIII-VII əsrlər) Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bayraqları Dövlət Bayrağı Muzeyi ilkin bayraqlar uzun bir təkamül yolu keçmişdir. Tədricən bayraq ucluqları kiçilmiş, parça hissəsi isə böyüdülmüşdür. Beləliklə, bayraqlar müasir görkəm almağa başlamışdır. Müasir dövrümüzdə bayraqlar dövlət, milli, hərbi (hərbi hissələrin, hərbi dəniz gəmilərinin), müxtəlif təşkilatların bayraqlarına və ştandartlara (vəzifəli şəxslərin bayraqları) bölünür. Hal-hazırda ştandart dövlət başçılarının hakimiyyət simvolu sayılır.

## İLK HAZIRLANDIĞI KİMİ HƏLƏ DƏ İSTİFADƏ EDİLƏN, DÜNYANIN ƏN YAŞLI BAYRAĞI


Danimarka

Artıq qeyd etdiyimiz kimi, bəzi tarixi mənbələrdən əldə etdiyimiz məlumatlara görə, ən qədim bayraq Çin və Hindistanda peyda olmuş, daha sonradan bütün dünyaya yayılmışdır. Onun da dünyada ilk bayraq olduğunu demək çətindir. Eyni zamanda məlumat üçün bildirmək istəyirik ki, ilk hazırlandığı kimi hələ də istifadə edilən dünyanın ən yaşlı bayrağı Danimarka ölkəsinin (15 iyun 1219-cu ildə qeydə alınmışdır) bayrağıdır. Bu bayraq daha sonradan digər skandinaviya ölkələrinin bayraqlarının quruluşuna təsir göstərmişdir. Bayraq rəsmi olaraq qəbul edilməmişdən öncə vikinqlərin ərazilərində istifadə edilirdi və üçbucaq kənarlara malik idi. Avstriyada ən qədim bayrağa sahib olmağa namizəddir. Lakin buradakı bayrağın tarixi 1230-cu il olaraq göstərilir. Göründüyü kimi, bu bayrağın da həmin dövrə aid olub-olmaması barədə tarixçilər və elm adamları tərəfindən müxtəlif fikirlər söylənilir.

## AĞ BAYRAQ


Ağ Bayraq

Bundan başqa bütün dünyada tanınan ağ bayraq da mövcuddur ki, beynəlxalq səviyyədə barışığın əldə edilməsi, yaxud müharibənin başa çatması və danışıqların aparılmasını xahiş etmək nişanıdır. Ağ bayraq həmçinin təslim olmaq niyyətini də bildirir, buna görə də adətən zəif hərbi tərəf bu bayraqla çıxış edərək danışıqlara başlamağı xahiş edir. Ağ bayraqla yaxınlaşan insanın silahsız olduğunu və dialoqlara başlamaq arzusunda olduğunu ifadə edir. Ağ bayraq daşıyan insan atəş aça bilməz və onu vurmaq olmaz. Bayraqdan istifadə Cenevrə Konvensiyasına daxil edilib.

## TARİXİ AZƏRBAYCAN DÖVLƏTLƏRİ VƏ BAYRAQLARI

Azərbaycanda isə hələ 1136 -cı ildə öz ərazisində mövcud olmuş ATABƏYLƏR


Atabəylər


Qaraqoyunlu


Ağqoyunlu

DÖVLƏTİ-NİN (ELDƏGƏZLƏR DÖVLƏTİ) - paytaxtı müxtəlif vaxtlarda Naxçıvan, Həmədan və Təbriz olmuşdur) göy rəngli üzərində ikibaşlı qartal təsviri olan bayrağı ucalırdı. Sonrakı illərdə QARAQOYUNLU DÖVLƏTİ - 1410-1468-ci illər ərzində Şirvan istisna olmaqla bütün Azərbaycanı, indiki Ermənistan ərazisi, Gürcüstanın bir hissəsi, Qərbi İran və İraqı əhatə edirdi. Bayraqlarında təsvir olunan qoyunun rənginə görə o Qaraqoyunlu adlanırdı. 1467-ci ildə Qaraqoyunluların məğlub edilməsi ilə Bağdada qədər olan geniş ərazi Ağqoyunluların əlinə keçir. 1468-ci ildə Uzun Həsən AĞQOYUNLU DÖVLƏTİNİN əsasını qoyur.

SƏFƏVİLƏR DÖVLƏTİ - 1501-ci ildən


Səfəvilər

1736-cı ilə qədər bugünkü Azərbaycan, İran, Ermənistan, İraq, Əfqanıstan, qərbi Pakistan, cənubi Türkmənistan və şərqi Türkiyə ərazilərini əhatə etmiş bir dövlətdir. Bayrağında İslam rəmzi olan yaşıl rəng üstünlük təşkil edir.

*Ardı Səh. 13*

Əvvəli Səh. 12

# Ay-ulduzlu Azərbaycan bayrağı qürur mənbəyimizdir

*Qədim tarixdə bayraqlar siqnallaşma üçün istifadə edilmişdir*

**BAKI XANLIĞIN BAYRAĞI** - bayrağın dördkünc qumaşı (ölçüləri 220 x 122 sm) dörd parça açıq moruğu və bir parça açıq xaradan əl ilə tikilmişdir. Uzununa yerləşdiril-




miş yaşıl parça (eni 31 sm) ona möhkəm tikilmiş qırmızı atlas köbə (eni 6 sm) vasitəsilə bayraq ağacına taxılmışdır.Yaşıl parçanın üstündə xırda nəbati naxışlı üç zolaq vardır. Birinci zolaqda yanyana baş-ayaq yerləşdirilmiş biri tünd, o biri açıq yaşıl rəngli zambağa oxşar butaların içində altıləçəkli güllər və şişuclu, dalğavari yarpağa oxşar naxışlar salınmışdır. Daha enli ikinci zolağın içində ucları birləşdirilmiş, biri tünd, o biri isə yaşıl rəngli iki aypara çəkilmiş, bu ayparaların və onların birləşməsindən yaranmış çevrənin içində altı və səkkizləçəkli güllər tikilmişdir. Ayparalarla zolağın arasında içərisində tünd yaşıl saplarla xallar vurulmuş butavari yarpaqlardan yaradılmış ornament salınmışdır. Bütün gül və naxışların üzərində artıq solmuş güləbətin saplarının izləri qalmışdır. Yaşıl parçaya yaxın yuxarı sol hissədə yerləşən parçanın üstündə tünd moruğu onturlu ucları birləşdirilmiş üç aypara təsvir edilmişdir. Birinci ən böyük ayparanın içində ortadan başlayaraq əks istiqamətlərdə tünd moruğu saplarla iki sünbül çəkilmişdir. Nisbətən enli yaşıl yerlikli orta ayparanın içində tünd moruğu saplarla iki sünbül çəkilmişdir. Nisbətən enli yaşıl yerlikli ayparanın içində tünd moruğu saplarla ərəb dilində "Ya Məhəmməd, möminləri müjdələ" və "Allahdan kömək və yaxın qələbə" sözləri yazılmışdır. Digər ayparanın uclarının birləşməsindən əmələ gələn çevrənin içində yaşıl fonda tünd moruğu saplarla ərəb dilində "Allah kömək edəndir və Allah qoruyandır" sözləri yazılmışdır. Uzunsov səkkizləçəkli gül formasında olan aşağı hissəsi ərəb qrafikası elementlərini ("bismillah" və ya "Bakuyə") xatırladan mürəkkəb naxışlarla örtülmüşdür.

**GƏNCƏ XANLIĞIN BAYRAĞI**- bayrağın dördkünc qumaşı (uzunluğu 127 sm, eni 174 sm) məxsusi toxunmuş və əl ilə bir-birinə tikilmiş moruğu və yaşılrəngli xara parçalarından hazırlanmışdır. Yuxarı hissənin sol tərəfində üç qızılı rəngli gül dəstəsi, al qırmızı rəngli bir uzunsov dairə, sağ hissəsində isə qızılı rəngli iki uzunsov dairə yerləşdirilmişdir. Qızılı zanbaq gülləri ilə əhatələnən qırmızı dairənin içində ərəb əlifbası ilə zərlə yazıl-




mış "Allah" sözü vardır. Təbii elementlərdən olan gümbəzlər qırmızı rəngli ay-ulduzla bitir. Ortadan iki hissəyə bölünmüş çərçivədə ərəbcə aşağıdakılar yazılmışdır: "Allah döyüş zamanı döyüşənləri evdə oturanlardan üstün tutur. Allah onlara fərq qoymadan, hamısının Allaha yaxınlaşmasından ötrü dərəcələr bəxş edər və onların günahlarını bağışlayar. Allah mərhəmətlidir, bağışlayandır ". Mərkəz hissə ara xətləri ilə on qata bölünmüş və bu qatlarda qızılı saplarla ərəbcə aşağıdakı yazı beş dəfə təkrarlanmışdır: "Allahdan başqa ilahi qüvvə yoxdur, Məhəmməd Allahın elçisidir".

**ŞƏKİ XANLIĞI BAYRAĞI** - ölçüsünə görə ən iri bayrağı (245 x 237 sm) beşbucaqlı formasındadır. Moruq rəngli orta hissəsi sarı ipək saplarla və güləbətinlə işlənmiş ornamentlərlə örtülmüşdür. Bayraq qumaşı xara (zərxara) parçadandır. Ortada, güləbətin sap-




larla işlənmiş şaquli istiqamətli xətlər arasında, sarı ipək saplarla cərgə-cərgə səkkizguşə və altıguşə ulduzlar, həndəsi qab fiqurları çəkilmiş, onların arasında isə, dəyirmi, rombvarı və üçbucağa oxşar kiçik fiqurlar salınmışdır.

**İRƏVAN XANLIĞIN BAYRAĞI**- bayrağın qumaş hissəsi (ölçüləri:156 x 156 sm) zoğalı rəngli dördkünc ipək qanovuz parçadandır.



*2. İrəvan xanlığının bayrağı*

Onun üstündə təbii boyalarla Şir və Günəş (şirixurşid) təsvirləri çəkilmişdir. Yan tərəfdən təsvir edilən Şir başını arxaya döndərmiş, qabaq sol pəncəsində qılınc tutmuş, quyruğunu belinə tərəf yuxarı qaldırmış şəkildə təqdim edilmişdir. Şirin arxasında doğan sarı Günəş və onun qızılı şüaları görünür. Şirin başı üstündə damcıvari sarı kartuşda "Əs-sultan ben əs-sultan Şah Fətəli Qacar, 1239" sözləri yazılmışdır. Bayraq qumaşının zoğalı hissəsində əmələ gəlmiş üçbucaqların hər birində yerləşdirilmiş yerliyi qara olan dörd kartuşun içərisində sarı rəngli hərflərlə aşağıdakı Quran ayələri yazılmışdır: aşağıda sağda - "Mömimləri müjdələ", solda - "Kömək allahdandır və yaxın qələbə", yuxarıda sağda - "Həqiqətən biz sənə açıq-aşkar bir qələbə bəxş etdik", solda - "Mərhəmətli, rəhimli allahın adı ilə". Bayrağın üz və astar üzlərindəki təsvirlər biri digərini təkrarlayır.

**QARABAĞ XANLIĞIN BAYRAĞI**- İmperator I Aleksandr tərəfindən vəd edilən bayraq bir il sonra - 1807-ci ildə Mehdiqulu xana təqdim edildi. 1838-ci il oktyabrın 30-da im-




perator I Nikolay Qarabağ xanlarının bu bayraqdan hakimiyyət rəmzi kimi istifadə etmək hüququnu təsdiq etdi. Bayraq qumaşı (ölçüləri 115 x 100 sm) zamanın təsirindən saralmış dördkünc ikiqat ağ qanovuz ipək parçadandır. Bayrağın hər iki üzündəki təsvirlər eynidir. Hər iki tərəfdə Rusiya imperiyasının gerbi təsvir olunmuşdur. Boz rəngli ikibaşlı qartalın dimdiyi, gözləri, caynaqları və caynaqlarında tutduğu hakimiyyət rəmzləri, eləcə də qartalın hər iki başında və başlarının üstündə, ortada təsvir edilmiş iki kiçik və bir böyük tac qızılı rəngdədir. Tacların üstü göy və qırmızı daşlarla bəzənmişdir. Qartalın sinəsində qızılı haşiyəsi olan Avropa qalxanı təsvir edilmişdir. Qalxanın üzərində ağ, qırmızı və boz rənglərlə Moskva şəhərinin gerbi - Müqəddəs Müzəffər Georginin əksi verilmişdir. Bayrağın kənarlarına gümüşü güləbətin saplarla bafta tikilmiş, onun üzərində isə uzunsov dairələrdə səkkizləçək güllər və xaçlar salınmışdır. Bayrağa üç tərəfdən qızılı saplardan və altıləçəkli gül formasında olan zərif gümüş asmalardan saçaq tökülmüşdür.

**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT BAYRAĞI** - haqqında ilk hökumət




qərarı 1918-ci il iyunun 21-də verilib. Həmin qərarda Azərbaycan bayrağını qırmızı materialdan, üstündə ağ, aypara və qırmızı fonda ağ səkkizguşəli ulduzun təsviri verilmiş bayraq kimi qəbul edilirdi. Bu qərar qəbul edilərkən Azərbaycan hökuməti hələ Gəncə şəhərində yerləşirdi və Bakıda fəaliyyət göstərmək qeyri-mümkün idi. Azərbaycan hökuməti Bakıda yalnız 15 sentyabr - şəhər türk qoşunlarının köməyi ilə düşmən qüvvələrdən təmizləndikdən sonra fəaliyyət göstərə bildi. İlk dövlət bayrağı qırmızı rəngdə, Türkiyənin dövlət bayrağı formasında olub. AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN ilk bayrağı 9 noyabr 1918-ci ilə qədər mövcud olub.

**AZƏRBAYCAN XALQ CÜMHURİYYƏTİNİN** Bakıda fəaliyyətə başlamasından az




sonra, bayraq haqqında ikinci qərar qəbul edildi. 1918-ci il noyabrın 9-da Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası milli bayraq haqqında qərar verib. Nazirlər Şurasının sədri Fətəli Xan Xoyskinin imzaladığı həmin qərarda deyilir: "Milli bayraq kimi yaşıl, qırmızı, göy rənglərdən, ağ aypara və səkkizguşəli ulduzdan ibarət olan bayraq qəbul edilsin". Milli bayrağımız ilk dəfə 1918-ci il noyabrın 9-da Bakıda, Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının yerləşdiyi binada (İndiki Azərbaycan Dövlət Neft şirkətinin yerləşdiyi, o zamankı neft milyonçusu, məşhur müğənni Seyid Mirbabayevin mülkündə) qəbul edilmiş və qaldırılmışdır. Azərbaycan bayrağının tarixində ən şərəfli, yaddaqalan günlərdən biri 7 dekabr 1918-ci ildə Şərqdə və Türk-İslam dünyasında ilk demokratik, dünyəvi dövlət olan Azərbaycan Xalq Cümhuriyyəti Parlamentinin açılışı zamanı olmuş, milli bayrağımız Parlament binası (böyük mesenat və milyonçu Hacı Zeynalabdin Tağıyevin Qız məktəbinin, indiki Əlyazmalar İnstitutunun binasında) üzərində qaldırılmışdır. Sovet Rusiyasının XI Qızıl ordusunun Azərbaycanı işğalı nəticəsində Azərbaycan Xalq Cümhuriyyəti devrildi, süqut etdi və həmin Cümhuriyyətin müqəddəs idealının - müstəqilliyinin rəmzi olan üçrəngli milli bayrağımız 1920-ci il mayın 3-də Azərbaycan Parlamentinin binası üzərindən endirildi.

1920-ci il aprelin 28-də Bakıda SOVET




HAKİMİYYƏTİ quruldu və Azərbaycan İctimai Şuralar Cümhuriyyəti (Azərbaycan Sovet Sosialist Respublikası) elan olundu. İlk dövrlərdə inqilabi al bayraqlarla yanaşı, bayrağın sapına yönəlmiş yuxarı sol küncündə ağ beşguşəli ulduz və ağ aypara təsvirli al bayraqlardan da istifadə olunurdu. 1921-ci ildə Bakıda buraxılmış plakatda belə bayraq təsvir olunmuşdu.

**AZƏRBAYCAN SOVET SOSİALİST RESPUBLİKASININ** ilk bayrağı 1921-ci ilin




may ayında Azərbaycan İctimai Şuralar Cümhuriyyətinin ticarət, dəniz və hərbi bayrağı al qumaş parçadan ibarət idi, onun sol küncündə, bayraq sapı tərəfdə yaşıl fon üzərində qızılı "AİŞC" və ya "Azərbaycan İctimai Şuralar Cümhuriyyəti" yazısı yerləşdirilmişdir. Azərbaycan SSR-in bayrağının RSFSR-in (Rusiya Sovet Sosialist Federativ Sosialist Respublikası) bayrağından fərqi onda idi ki, RSFSR bayrağında yazılı sahə qırmızı idi, Azərbaycan SSR-ində isə yaşıl verilmişdi. 1921-ci Azərbaycan SSR-in dövlət dili əsasında türk dili, əlifbası isə ərəb əlifbası idi, odur ki, "AİŞC." abreviaturası da ərəb əlifbası ilə türk dilində verilirdi.

AZƏRBAYCAN SSR-nin 1921-1922-ci illərdəki bayrağı-1922-ci ilin dekabrın 30-da




SSRİ-nin tərkibinə daxil olduqdan sonra öz müstəqilliyini de fakto itirən Azərbaycan SSR MİK (Mərkəzi İcraiyyə Komitəsi) yeni latın qrafikalı əlifbanın (yeni əlifba adlanan) ərəb əlifbası əsasında olan köhnə əlifbası ilə eyni hüquqa malik olması barədə dekret qəbul etdi. Bu amil bayrağın təsvirinə də öz təsirini göstərmiş oldu, yəni "A.S.S.R" abreviaturası, həm latın, həm ərəb əlifbası ilə verildi.

Ardı Səh. 13

# Ay-ulduzlu Azərbaycan bayrağı qürur mənbəyimizdir

*Qədim tarixdə bayraqlar siqnallaşma üçün istifadə edilmişdir*

Əvvəli Səh. 13

**AZƏRBAYCAN SSR-nin** 1922-24-cü illər ərzində dalğalanan bayrağı 1924-cü il dekabrın 8-də Azərbaycan SSR MİK-in dördüncü çağırış üçüncü sessiyası Azərbaycan SSR




Konstitusiyasının (Əsas Qanun) yeni redaksiyasını qəbul etdi. Azərbaycan SSR Sovetlər Qurultayı 1925-ci il martın 14-də onu təsdiq etdi. "AİŞC-nin dövlət bayrağı 2:1 nisbətdə olan al (qırmızı) qumaşdan ibarətdir. Yuxarı sol küncündə, bayraq sapı tərəfdə radiusu bayraq eninin 1/6-nə bərabər olan ölçüdə qızılı oraq və çəkic yerləşdirilib; onun üzərində şiş ucları sağ tərəfə yönəlmiş qızıl aypara və qızılı xətlə haşiyələnmiş qırmızı beşguşəli ulduz yerləşdirilib; ayparanın diametri bayraq eninin 1/10-nə bərabərdir, oraq və çəkicdən sağda yeni və əski türk əlifbası ilə "A.İ.Ş.C" yazısı verilib.

**Azərbaycan Sovet Sosialist Respublikasının 1924-1930-cu illər** bayrağı 20-ci illərin axırında rus dilindəki "soüialistiçeskaə"




sözü əvvəlki tək "ictimai" kimi deyil, "sosialist" kimi tərcümə edilməyə başlanıldı. Bununla bağlı bayraq üzərindəki abreviatura yazısında da düzəlişlər edildi. 1930-cu ildən başlayaraq, Azərbaycan SSR-in bayrağı üzərində "ASSR" abreviaturası yalnız latın əlifbası ilə verilməyə başladı.

**Azərbaycan Sovet Sosialist Respublikasının 1930-1937-ci illər** bayrağı 1937-ci il




Konstitusiyasının 152-ci maddəsində isə dövlət bayrağının təsviri belə ifadə edilmişdi: Azərbaycan Sovet Sosialist Respublikasının dövlət bayrağı, sol bucağında, bayraq ağacı yanında yuxarıda qızılla oraq və çəkic çəkilmiş və üstündə Azərbaycan dilində "Az SSR" sözləri yazılmış qırmızı qumaşdan ibarətdir.

**Azərbaycan SSR-nin 1937-1940-cı illər**




ərzindəki bayrağı. Bayraqdakı təsvirlər latın qrafikası ilə göstərilib.

1939-cu il 11 iyul tarixdə qəbul edilmiş "Azərbaycan əlifbasının latın əlifbasından rus əlifbasına keçməsi" haqqında Azərbaycan SSR-in Qanununa uyğun olaraq 1940-cı il yanvarın 1-dən Azərbaycan əlifbası latın əlifbasından rus əlifbasına keçirildi. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 1940-cı il 20 mart tarixli fərmanı ilə Azərbaycan SSR Dövlət bayrağı üzərində "Az. SSR" abreviaturası yeni əlifba ilə təsvir edildi.

**AZƏRBAYCAN SSR-nin 1940-1952**-ci illər ərzindəki bayrağı Azərbaycan SSR Ali




Soveti Rəyasət Heyətinin 1952-ci il 7 oktyabr tarixli Fərmanı ilə Azərbaycan SSR-nin yeni Dövlət bayrağı təsdiq olundu və onun təsviri Azərbaycan SSR-in 1953-cü il 18 avqust tarixli Qanunu ilə Azərbaycan SSR Konstitusiyasının (Əsas Qanun) 152-ci maddəsinə daxil edildi: "Azərbaycan Sovet Sosialist Respublikasının Dövlət bayrağı iki üfüqi yerləşən rəngli zolaqlardan ibarətdir: qırmızı rəngli üst zolaq bayrağın eninin 3/4-nə bərabər ölçüdədir, göy rəngli alt zolaq bayrağın eninin 1/4-nə bərabər ölçüdədir, qırmızı zolağın yuxarı sol küncündə bayraq sapı tərəfdə qızılı oraq və çəkic, onlardan yuxarıda qızılı xətlə haşiyələnmiş qırmızı beşguşəli ulduz yerləşdirilib. Eninin uzununa nisbəti 1:2-dir.

**Azərbaycan SSR-in 1952-1991-ci** ilə kimi mövcud olmuş bayraq,1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin qərarı ilə dəyişilərək Azərbaycan




Xalq Cümhuriyyəti zamanı mövcud olan üçrəngli bayraq Muxtar Respublikanın Dövlət bayrağı kimi qəbul edilib. 1991-ci il oktyabrın 18-də müstəqillik haqda Konstitusiya Aktı qəbul olunub və üçrəngli bayrağımız Azərbaycan Respublikasının dövlət bayrağı kimi yenidən dalğalanmağa başlayıb.

Azərbaycan Respublikasının rəsmi simvollarından (himn və gerblə birlikdə) biri olan bayraq ilk dəfə 9 noyabr 1918-ci ildə müsəlman şərqində ilk demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurası tərəfindən təsdiq edilmişdir. 1991-ci il oktyabrın 18-də "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya Aktı ilə Azərbaycan Respublikası Azərbaycan Xalq Cümhuriyyətinin varisi kimi onun dövlət rəmzlərini, o cümlədən Dövlət bayrağını bərpa etmişdir.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN ŞTANDARTI

Azərbaycan Respublikasının Prezidenti ilham Əliyevin ştandartı (bayrağı) 15 sentyabr 2008-ci ildə "Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) haqqında" imzalanan Fərman əsasında qəbul olunmuşdur. Fərmanda qeyd olunur ki, "Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) Azərbaycan Respublikası Prezidentinin rəsmi simvoludur; Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) etalonu (orijinalı) Azərbaycan Respublikası Prezidentinin Azərbaycan Respublikasının Prezident sarayında yerləşən xidməti otağında saxlanılır; Azərbaycan Respublikası Prezidentinin ştandartının (bayrağının) dublikatı




Azərbaycan Respublikasının Prezident sarayının və Azərbaycan Respublikası Prezidentinin iqamətgahlarının üzərində, Azərbaycan Respublikasının Prezident sarayında və Azərbaycan Respublikası Prezidentinin iqamətgahlarında Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə rəsmi tədbirlərin keçirilməsi üçün nəzərdə tutulan salonlarda və otaqlarda, Azərbaycan Respublikası Prezidentinin digər iqamətgahlarda olduğu müddətdə həmin iqamətgahların üzərində, Azərbaycan Respublikası Prezidentinin iştirakı ilə keçirilən rəsmi tədbir və digər mərasimlər zamanı Azərbaycan Bayrağı Azərbaycan Respublikası Prezidentinin ştandartının dublikatı (15 sentyabr 2008-ci il) Dövlət Bayrağı Muzeyi Azərbaycan Bayrağı Azərbaycanın orta əsrlər dövlətlərinin bayraqları (reproduksiya) Dövlət Bayrağı Muzeyi həmin tədbirin keçirildiyi binanın üzərində və ya həmin tədbirin keçirildiyi salonda (otaqda), Azərbaycan Respublikası Prezidentinin nəqliyyat vasitələri üzərində qaldırıla (asıla) və ya yerləşdirilə bilər". Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) Azərbaycan Respublikasının Dövlət bayrağının rənglərinə uyğundur və hər iki üzündə qırmızı zolağın ortasında Azərbaycan Respublikasının Dövlət gerbi təsvir edilmişdir. Dövlət bayrağından fərqli olaraq, Azərbaycan Respublikası Prezidentinin ştandartı (bayrağı) kvadrat formadadır və müxtəlif ölçülərdə ola bilər.

## DÖYÜŞ BAYRAĞI

Döyüş bayrağı-Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi hissəsinin Döyüş Bayrağı əsgəri şərəf, şücaət və şöhrət rəmzidir. O, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hər bir hərbi qulluqçusuna Vətəninə




Az.Resp.Silahlı Qüvvələrin

sədaqətlə xidmət etmək, öz qanını və canmı belə əsirgəmədən onu mərdlik və bacarıqla müdafi? etmək, doğma torpağın hər qarışmı düşməndən qorumaq borcunu xatırlatmaq üçündür.

Döyüş Bayrağı adı və nömrəsinin dəyişilməsindən asılı olmayaraq hərbi hissədə həmişəlik qalır. Hərbi hissənin adının və nömrəsinin dəyişilməsi Döyüş Bayrağı ilə birlikdə verilən təqdimata yazılır.

3.Döyüş Bayrağı hər vaxt öz hissəsi ilə, döyüş meydanında isə hissənin döyüş əməliyyatları bölgəsində olmalıdır.

4.Hərbi hissənin bütün şəxsi heyəti Döyüş Bayrağını fədakarlıq və mərdliklə qorumalı və onun düşmən tərəfindən ələ keçirilməsinə yol verməməlidir. Döyüş Bayrağı itirildikdə hərbi hissənin komandiri və bu rüsvayçılığa bilavasitə müqəssir olan hərbi qulluqçular məhkəməyə verilməli, hərbi hissə isə ləğv edilməlidir.

Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi Hissəsinin döyüş bayrağinin təsviri - Azərbaycan Respublikası Silahlı Qüvvələri Hərbi hissəsinin Döyüş Bayrağı ikiüzlü qumaşdan, ağac dəstəkdən, qotazlı qaytandan ibarətdir. Bayrağın qumaşı düzbucaqlıdır, eni 114 sm, uzunluğu 145 sm-dir. Qıraqları üç tərəfdən qızılı rəngli ipək saçaqlarla köbələnmiş, ikiqat bükülmüş üçrəngli (Azərbaycan Respublikasının Dövlət Bayrağı rəngində) ipək faydan hazırlanmışdır. Qumaşın üz tərəfində qırmızı zolağın ortasında ağ ipəkdən 38 sm hündürlükdə aypara və 20 sm hündürlükdə səkkizguşəli ulduz tikilmişdir. Qumaşın üst kənarı boyu mavi zolaqda qızılı ipəklə "Azərbaycan uğrunda" şüarı tikilib. Yazıdakı hərflərin hündürlüyü 6,5 sm-dir. Qumaşın arxa tərəfində qırmızı zolağın ortasında qurama vardır: Silahlı Qüvvələrin emblemi (hündürlüyü 55 sm), aypara (hündürlüyü 22 sm), ayparanın yuxarı yönəldilmiş iti ucları arasında mavi zolaqda qarşı duran təpələrinin arası 12 sm olan s?kkizguş?li ulduz yerləşib. Aypara tiyələri yuxarı baxan çarpazlaşdırılmış qılınclara söykənib. Aypara, səkkizguşəli ulduz və qılınclar ağ ipəkdən tikilib. Qılıncların aşağı əsaslarından tiyələr boyunca hər iki tərəfə, onların ucuna qızılı ipək sapla tikilmiş iki dəfnə budağı yönəlib. Qumaşın aşağı kənarı boyu yaşıl zolaqda qızılı ipək sapla hərbi hissənin nömrəsi və adı tikilib. Rəqəmlərin hündürlük ölçüsü 7,0 sm, yazının hərflərinin ölçüsü 4,5 sm-dir. Hərbi hissənin adındakı hərflərin sayından asılı olaraq rəqəmlərin ölçüsü 5,0 sm-ə, hərflərin ölçüsü 4,0 sm-ə qədər azaldıla bilər. Bayrağın dəstəyi en kəsiyinin diametri 4,0 sm, uzunluğu 2,5 m olan girdə ağacdandır. Ağac dəstək tünd qəhvəyi rəngdə rənglənib, laklanıb, aşağı ucunda metal halda, yuxarı ucunda isə nikellənmiş fiqurlu ucluq vardır. Bayrağın qaytanı eşmədir, qızılı rəngli ipəkdən hazırlanıb, hər iki ucunda qotazları var. Qaytanın uzunluğu 270-285 sm-dir.

Müasir milli bayrağımızı qərb bölgəsində 1991-ci ildə Tovuz rayonunun Ağdam kəndində dünyaya gələn, Laçın Bağırova tikərək milli ordumuzun əsgərlərinə bağışlayıb. Bayrağımız Tovuzun ermənilərlə sərhəddəki Ağdam kəndinin ən uca yerində 14 metr hündürlüyündə düşmənin gözü önündə dalğalandırılıb.

Azərbaycan Respublikasının dövlət bayrağı bərabər enli üç üfüqi zolaqdan (yuxarı zolaq mavi, orta zolaq qırmızı, aşağı zolaq yaşıl rəngdədir) ibarətdir. Qırmızı zolağın ortasında bayrağın hər iki üzündə ağ rəngli aypara ilə səkkizguşəli ulduz təsvir edilmişdir. Bayrağın göy rəngi türkçülüyü, qırmızı müasir azadlıq ideologiyasını, yaşıl rəng isə İslamçılığı tərənnüm edir.

Azərbaycan prezidenti İlham Əliyevin 2009-cu il noyabrın 18-də imzaladığı sərəncamla 9 noyabr tarixi DÖVLƏT BAYRAĞI günü kimi qeyd olunur. Prezident həmçinin Dövlət Bayrağı günü münasibətilə Əmək Məcəlləsinə dəyişiklik edilməsi üçün parlamentə təklif göndərib. Təklifi dəyərləndirən Milli Məclis Əmək Məcəlləsinə müvafiq dəyişiklik edib və dəyişikliyə əsasən Dövlət Bayrağı günü qeyri-iş günü hesab olunur.

2010-cu il sentyabrın 1-də Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə Dövlət Bayrağı Meydanının - Bakı şəhərinin Bayıl sahəsində yerləşən memorial abidə-istirahət parkının təntənəli açılışı olub. Bayraq dirəyinin hündürlüyü 162 m, bünövrəsinin diametri 3,2 m, bünövrənin üst hissəsinin diametri 1,09 m-dir. Qurğunun ümumi kütləsi 220 tondur. Bayrağın eni 35 metr, uzunluğu 70 metr, ümumi sahəsi 2450 kvadrat metr, çəkisi isə təqribən 350 kiloqramdır. Meydanda qurulmuş Azərbaycan Respublikasının gerbi, dövlət himninin mətni və ölkəmizin xəritəsi qızıl suyuna salınmış büründən hazırlanıb. Meydanda Dövlət Bayrağı Muzeyi də yaradılıb.

**"Resurs" Analitik İnformasiya Mərkəzi**

# Beynəlxalq humanitar təşkilatların işğalçılara yardımı

***Müharibə və atəşkəs dövründə erməni ordusu tərəfindən əsir və girov götürülmüş azərbaycanlılardan, 30 nəfərə yaxını, qohumları tərəfindən külli miqdarda pul, qızıl və qiymətli əşya verilməklə azad edilmişlər. Erməni əsirliyində olan bir çox Azərbaycan vətəndaşlarının bədən üzvləri çıxarılaraq, satılmışdır. Əsir düşmüş və girov götürülmüş Azərbaycan vətəndaşlarının Beynəlxalq Humanitar təşkilatlardan gizlədilərək, işğal olunmuş ərazilərdə saxlanılması və onlara qarşı amansız cəza metodlarının tətbiqi barədə mütəmadi məlumatlar daxil olmaqdadır.***

## İşğal altındakı ərazilərdə ermənilərin qanunsuz məskunlaşdırılması

Erməni tərəfinin rəsmi məlumatlarına və qondarma "DQ" hökumətinin hesabatına görə, 2001-ci ildə Dağlıq Qarabağın əhalisi 143 min nəfər təşkil edib. Halbuki 1989-cu ilin siyahıya alınmasına görə, həmin ərazidə 90 min nəfərdən bir qədər çox erməni yaşamışdır. ABŞ-ın Qaçqınlar üzrə Komitəsinin, qaçqınların vəziyyəti ilə əlaqədar, 2002-ci ilə dair Ümumdünya İcmalında Ermənistan üzrə məruzədə 1000-ə yaxın ailənin Ermənistandan Dağlıq Qarabağ və Laçın dəhlizinə köçürüldüyü bildirilib. 2003-cü ilin yanvar ayından Dağlıq Qarabağ ərazisini tərk edənlərin qarşısının alınması məqsədilə, müəyyən olunmuş qaydalara görə, daimi yaşamaq üçün gedən ailələr, təxminən 15, hərbi çağırışçılar 10 min ABŞ dolları məbləğində rüsum ödəməlidirlər.

Ermənistanın bütün şəhər və rayonlarında 2002-ci ildən rəsmən fəaliyyət göstərən miqrasiya xidmətləri ölkə əhalisinin işğal olunmuş ərazilərə köçürülməsi istiqamətində iş aparır. 1994-cü ildən etibarən, dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərin qeyri-qanuni olaraq Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərinə köçürülməsi halları mövcuddur. Qondarma qurumun "parlamenti"nin "DQR"-ə köçürülən rus ailələrinin övladlarının 2005-ci ildən Qarabağ məktəblərində erməni və rus dillərində təhsil almalarını nəzərdə tutan qərarı da mövcuddur.

Beynəlxalq "Qırmızı Xaç Komitəsi"nin Cənubi Qafqaz üzrə Miqrasiya Nümayəndəliyin 2004-cü il oktyabr ayının 25-də keçirdiyi hesablamalarına görə, hər ay orta hesabla Dağlıq Qarabağ ərazisinə 15-ə yaxın ailə köçürülür və 2004-cü ildə belə ailələrin sayı 200-ə çatmışdır.

Rəsmi Yerevan köçürülmə layihələrində özünün birbaşa iştirakını gizlətməyə çalışsa da, 2000-ci ildən etibarən "Artsaxa qayıdış" adlı irimiqyaslı proqramın həyata keçirilməsi ilə Ermənistan Respublikası hökuməti yanında (Andranik Marqaryanın rəhbərliyi altında) müşavir Benik Baxşiyan, "DQR"-in "statistika idarəsinin rəhbəri" - Serj Amirxanyan, "kənd təsərrüfatı naziri" - Vaqram Baqdasaryan, "milli yığıncağın maliyyə, büdcə məsələləri üzrə komissiyasının sədri" - Mayor Danelyan, Ermənistanın miqrasiya və qaçqınlar idarəsinin müdiri - Qaqik Eqanyan və digər vəzifəli şəxslər, həmçinin, "Yerkir" ictimai təşkilatı aktiv şəkildə məşğuldurlar. Həmin vaxtdan etibarən qaçqınlar və emiqrasiya idarəsi yuxarıda adıçəkilən proqramın realizə olunmasına, bilavasitə qoşulmuşdur.

2003-cü ilin dekabrında Ermənistanın baş naziri A.Marqaryan erməni əhalisinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsinə köçürülməsi məsələsinin Ermənistan hökuməti üçün prioritet təşkil etdiyini rəsmən bildirmişdir.

İşğal olunmuş ərazilərdə qeyri-qanuni məskunlaşdırma faktları müxtəlif KİV-də də geniş işıqlandırılmışdır. Açıq qaynaqlara istinadən, 2004-cü ilin ilk altı ayı ərzində, işğal olunmuş ərazilərə 120 erməni ailəsi köçürülmüşdür.

Bu ərazilərdə qeyri-qanuni "köçürülmə əməliyyatı" və tikinti işlərinin əsas sponsorları "Qərbi Amerikanın Erməni Təhsil Fondu", "Hayastan Fondu" təşkilatları və Tehranın Erməni Yeparxiya Şurasıdır. 2004-cü ildə xarici fondlar tərəfindən "Artsaxa qayıdış" proqramının realizəsi üçün 400 min ABŞ dollarının ayrıldığı və Azərbaycanın işğal olunmuş sərhədyanı ərazilərində 90-a yaxın evin tikintisinin başa çatdırılması məlumdur.

Köçürülmələrə ayrılmış pulların səlahiyyətli şəxslər tərəfindən mənimsənilməsi və köçürülən şəxslərin 30%-nin bədbin yaşayışdan Yerevana və digər MDB ölkələrinə qayıtmaları barədə 1999-cu ildə erməni KİV-də məlumatlar yayılmışdır. Belə məqamlardan biri, erməni diasporası tərəfindən Dağlıq Qarabağda yaşayan və köçürülən ailələrə pulların çatdırılmaması barədə "10-cu naxanq" qəzetinin müxbiri Vaqram Oqacanyan 1999-cu ildə "Dağlıq Qarabağa köçürülən şəxslər üçün büdcədə pul yoxdur" adlı məqaləsinin nəşri olmuşdur. Bu məqalə V.Oqacanyanın 2000-ci ildə bir il müddətinə azadlıqdan məhrum edilməsinə və "DQR" "prokurorluğu" tərəfindən barəsində cinayət işinin qaldırılmasına zəmin yaratmışdır.

## Təbii, maddi və mənəvi sərvətlərin talan edilməsi və qanunsuz istismarı

Azərbaycanın işğal olunmuş ərazilərində evlərin, qəbirlərin, mədəniyyət abidələrinin dağıdılması, avadanlığın, inşaat materiallarının, xüsusilə, dəmir məmulatlarının və sair yüklərin digər ölkələrə daşınması barədə mütəmadi məlumatlar daxil olmaqdadır.

Müvafiq məlumatlar, tərkibində müxtəlif qiymətli metallar, o cümlədən, qızıl olan torpağın, zavod və fabriklərdə istismar olunmuş dəzgahların, elektrik qatarları, vaqonlar və relslərin kəsilərək, digər ölkələrə daşınması faktlarını ehtiva edir.

İşğal altında olan ərazilərdən qarət edilmiş milli sərvətlərimizin - qədim tarixi əsərlərin, xalçaların və mineralların Avropa ölkələrində erməni milli sərvəti adı altında nümayiş etdirilməsi barədə məlumatlar mövcuddur. Ermənilər Kəlbəcərdə yerləşən mineral yataqların və 3600-ə qədər qaya təsvirinin fotoşəkillərini 2000-ci ildə Finlandiyada öz əraziləri kimi nümayiş etdirmişlər.

Son zamanlar ermənilərin Qədim Azərbaycan musiqi alətlərini öz adlarına çıxaraq Avropa, MDB və Şimali Amerika ölkələrində satmaları halları çoxalmış, Qarabağ xalçalarının erməni və ya fars xalçaları adı altında müxtəlif sərgilərə və hərraca çıxarılması faktları qeydə alınmışdır. Son illər ərzində Azərbaycanın işğal edilmiş ərazilərində külli miqdarda çıxarılmış tarixi, mədəni və dini abidələr xarici ölkələrə satılmışdır. İşğal olunmuş ərazilərdəki muzeylərdə mövcud olan unikal eksponatlar ya məhv edilmiş, yaxud həmin eksponatların əsasında onların guya ermənilərə məxsusluğunu göstərən yeni muzeylər yaradılmışdır. Bu mənada, ermənilərin Qədim Qafqaz Albaniyası abidələrini özününküləşdirilməsi məsələsinə xüsusi önəm verdiyi bildirilməlidir. Onların üzərində mövcud olan Qədim Alban yazıları, divar naxışları və xaçlar məhv edilib, erməni atributikası ilə əvəzlənir. Bir sıra məscidlər isə, anbarlar kimi istifadə olunur. Bu kampaniya məqsədyönlü xarakter daşımaqla, işğal edilmiş rayonların tarixi-mədəni nöqteyi-nəzərindən Azərbaycana aid olmaması və bununla, ermənilərin həmin ərazilərdə məskunlaşmalarına bəraət qazandırılmasına yönəldilmişdir.

Bu müstəvidə, Azərbaycana məxsus yer adlarının dəyişdirilərək, erməni adları ilə əvəz olunması, xüsusilə, kütləvi hal aldığı bildirilməlidir. Bütün bunlarda başlıca məqsəd gələcəkdə həmin ərazilərin ilhaqının həyata keçirilməsinə "əsas yaratmaq"dır.

Xalqımıza məxsus maddi sərvətlərin daha geniş miqyaslarda talan edilməsi məqsədilə, Azərbaycanın işğal olunmuş ərazilərində qanunsuz iqtisadi fəaliyyətə xarici ölkələrin bir sıra firma və şirkətləri də cəlb edilmişdir. Erməni tərəfinin təşkilatçılığı ilə 2004-cü ilin yanvar-iyul ayları ərzində, Azərbaycan Respublikasının müvafiq dövlət orqanlarının razılığı olmadan, ölkəmizin Dağlıq Qarabağ və işğal olunmuş digər ərazilərinə 1610 nəfər əcnəbi vətəndaş səfər etmişdir.

BMT-nin Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874 və 884 saylı qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq, Ermənistan Respublikası hal-hazırda işğalçılıq siyasətini davam etdirməkdədir.

Azərbaycan Respublikasının Ermənistan və separatçı-terrorçu rejim tərəfindən işğal altında saxlanılan, beynəlxalq nəzarətdən kənar ərazilərində qanunsuz fəaliyyətlərə dair MTN-in əldə etdiyi məlumatlar təsdiqini tapmaqdadır.

*Ermənistanın bütün şəhər və rayonlarında 2002-ci ildən rəsmən fəaliyyət göstərən miqrasiya xidmətləri ölkə əhalisinin işğal olunmuş ərazilərə köçürülməsi istiqamətində iş aparır. 1994-cü ildən etibarən, dünyanın müxtəlif ölkələrində yaşayan ermənilərin qeyri-qanuni olaraq Azərbaycanın Dağlıq Qarabağ və işğal edilmiş digər ərazilərinə köçürülməsi halları mövcuddur. Qondarma qurumun "parlamenti"nin "DQR"-ə köçürülən rus ailələrinin övladlarının 2005-ci ildən Qarabağ məktəblərində erməni və rus dillərində təhsil almalarını nəzərdə tutan qərarı da mövcuddur*

**VAHİD ÖMƏROV,**
**fəlsəfə üzrə fəlsəfə doktoru**




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 13 noyabr




## YAP Gəncə şəhər təşkilatı imzatoplama kampaniyasını uğurla başa çatdırıb

Yeni Azərbaycan Partiyası Gəncə şəhər təşkilatı dekabrın 23-də ölkəmizdə keçiriləcək bələdiyyə seçkilərində YAP tərəfindən irəli sürülmüş namizədlərin imzatoplama kampaniyasını uğurla başa çatdırıb. Qəzetə verilən məlumata görə, işini partiya rəhbərliyinin tövsiyə və tapşırıqlarına uyğun şəkildə quran, ölkəmizdə artıq 5-ci dəfə keçiriləcək bələdiyyə seçkilərinə böyük ruh yüksəkliyi ilə hazırlaşan YAP Gəncə şəhər təşkilatı bələdiyyə seçkilərində 3 bələdiyyə üzrə 43 nəfər namizədlə təmsil olunur. Onlardan 19 nəfəri Nizami rayon bələdiyyəsi, 19 nəfəri Kəpəz rayon bələdiyyəsi və 5 nəfəri isə Hacıkənd bələdiyyəsi üzrə öz namizədliklərini irəli sürüblər.

Qeyd edək ki, YAP Gəncə şəhər təşkilatında partiya fəallarının iştirakı ilə treninqlər keçirilib, imza vərəqələrinin doldurulma qaydaları barədə müvafiq izahatlar verilib. Bu səbəbdən də, partiya tərəfindən namizədliyi irəli sürülən şəxslərin imzatoplama kampaniyası uğurla həyata keçirilib, müvafiq sənədlər toplanaraq, Dairə Seçki Komissiyalarına təhvil verilib. Hazırda seçkilərdə irəli sürülən namizədlərin təşviqatının keçirilməsi məqsədilə hazırlıq işləri davam etdirilməkdədir.

***Rövşən RƏSULOV***

## Xəbərdarlıq: Dağlıq ərazilərdə qar yağacaq

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentinin verdiyi məlumata görə, Bakıda və Abşeron yarımadasında noyabrın 13-ü axşamdan noyabrın 17-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, fasilələrlə yağış yağacağı, bəzi yerlərdə intensivləşəcəyi ehtimalı var. Departamentdən AZƏRTAC-a bildiriblər ki, şimal küləyi əsəcək, küləyin sürəti arabir 15-20 metr/saniyə olacaq, bəzi yerlərdə arabir 23-25 metr/saniyəyədək güclənəcək. Havanın temperaturu 10-12° isti olacaq.



Azərbaycanın rayonlarında noyabrın 13-ü axşamdan noyabrın 17-dək hava şəraitinin qeyri-sabit keçəcəyi, temperaturun ötən günlərlə müqayisədə 5-8° enəcəyi, əsasən şimal və şərq rayonlarında yağış yağacağı gözlənilir. Bəzi yerlərdə yağışın intensiv olacağı, dağlıq ərazilərdə qar yağacağı ehtimal edilir. Şimal-şərq küləyi əsəcək, ayrı-ayrı yerlərdə arabir güclənəcək.

## Gəncədə 9 Noyabr - Dövlət Bayraq Gününə həsr edilən konfrans keçirilib

***YAP Gəncə şəhər təşkilatının qərargahında YAP-ın Gəncə şəhər, YAP Binəqədi və Pirallahı rayon təşkilatları 9 Noyabr - Dövlət Bayraq Gününə həsr edilən konfrans keçirib.***



Tədbirdə çıxış edən YAP Gəncə şəhər təşkilatının sədri, millət vəkili Naqif Həmzəyev siyasi həmfikirlərinin Qədim Gəncə şəhərində, Şeyx Nizaminin yurdunda görməkdən məmnun olduğunu bildirib. Azərbaycanın ictimai-siyasi həyatında aparıcı rol oynayan Yeni Azərbaycan Partiyasının milli maraqlarımıza və ölkəmizin inkişafına xidmət edən fəaliyyətinin cəmiyyət tərəfindən daim yüksək dəyərləndirildiyini vurğulayan Naqif Həmzəyev paytaxtda və regionda fəaliyyət göstərən partiya fəallarının əlamətdar bir günü Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtında birlikdə qeyd etmələrinin alqışalayiq hal olduğunu qeyd edib.



YAP Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov çıxış edərək, Azərbaycan xalqının qürur mənbəyinə, milli-mənəvi kimliyinə, millətin siyasi vizit kartına, ölkə vətəndaşlarının qeyrət və dəyanət simvoluna çevrilən üçrəngli bayrağımıza müqəddəs atribut kimi yanaşıldığını və bu günün qeyd edilməsinin hər bir azərbaycanlı üçün şərəfli olduğunu vurğulayıb.



YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov çıxışında bildirib ki, Dövlət Bayraq Gününün bayram kimi qeyd edilməsi Prezident İlham Əliyevin və ölkə vətəndaşlarının öz dövlətçiliyinə və suverenliyinə, dövlət rəmzlərinə, müstəqillik simvollarına yüksək münasibətinin əyani təzahürüdür.




Azərbaycanın Milli Qəhrəmanı Bəxtiyar Allahverdiyev çıxış edərək, milli bayrağın xalqımızın milli mövcudluğunun rəmzi olduğunu bildirib, Azərbaycan vətəndaşının, xüsusən, gənc nəslin bayrağa olan məhəbbətindən danışıb.

"Azərbaycan Xalq Cümhuriyyətinin yadigarı olan üçrəngli bayrağımız bu gün müasir Azərbaycanın müstəqillik rəmzinə çevrilib" deyə millət vəkili Pərvin Kərimzadə bildirib: "O bayraq ki, onun uğrunda qan tökülüb, can verilib, mübarizə aparılıb. O bayraq ki, onun kölgəsi düşən hər bir qarış torpağı özümüzə Vətən bilmişik. Bu gün ölkəmizin bütün bölgələrində dalğalanan bayraqlar, sanki sıralanaraq durna qatarı kimi Qarabağa, Şuşaya, işğal edilən digər torpaqlara sarı qanadlanır. Əminik ki, Prezident İlham Əliyevin qüdrətli siyasəti sayəsində tezliklə torpaqlarımız işğaldan azad ediləcək və üçrəngli bayrağımız Dağlıq Qarabağda dalğalanacaq".



Tədbirdə YAP Pirallahı rayon təşkilatı gənclər birliyinin sədri Rüfət Əhmədov, YAP-ın Binəqədi rayon təşkilatının gənclər birliyinin şura üzvü Kubra Əliyarlı çıxış edərək, öz fikirlərini bölüşüblər.

Sonda qonaqlar Heydər Əliyev Mərkəzini, Nizami Gəncəvi Məqbərəsini, Xan Bağını, Cümhuriyyət Muzeyini, Qala Qapıları: Arxeologiya və Etnoqrafiya Muzeyini ziyarət edib, ADAU-nun müasir standartlara cavab verən tələbə yataqxanası ilə yaxından tanış olublar, eyni zamanda, səfər iştirakçıları Heydər Əliyev Mərkəzinin parkında xatirə olaraq ağac əkiblər.

***ZÜMRÜD BAYRAMOVA***

### ELAN

Azərbaycan Dövlət Pedaqoji Universitetinin İbtidai-təhsil ixtisası üzrə II kurs tələbəsi Bağırzdə Ülkər Ələmdar qızının adına verilmiş tələbə bileti itdiyi üçün etibarsız sayılır.


*Baş redaktor:*
**Bəhruz Quliyev**
*Baş redaktorun müavinləri:*
**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.**
**"Azərbaycan" nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 4600**